www.musavat.com

# Yeni MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-21 fevral 2016-cı il Şənbə № 40 (6361) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycan Ordusu döyüşə hazırlıq məşqləri keçir

yazısı səh.2-də

**Gündəm**

### 2Ankara terrorundakı "Rusiya ləpiri" aydın görünməyə başlayır...



Türkiyədə terror həyəcanı davam edir; **Qabil Hüseynli:** "Ərdoğanın Bakıya səfərinin kökündə nələrin durduğunu Rusiyadan yaxşı bilən olmazdı"...

yazısı səh.5-də

### Azərbaycan indiki neft qiyməti ilə nə qədər qazanır...

yazısı səh.10-da

*Rusiyalı politoloq:*

### "Ankara Bakıdan Ermənistana zərbə endirməyi tələb edəcək..."

yazısı səh.5-də

*Eyyub Hüseynov:*

### "Yanlış iqtisadi siyasət bazarı xarici məhsullardan asılı vəziyyətə salıb"

yazısı səh.15-də

### İkinci devalvasiyanın 2 ayı - iqtidar təhlükədən qurtuldumu...

yazısı səh.6-da

### "Mərkəzi Bankın uçot dərəcəsini yüksəltməsi heç nəyi dəyişməyəcək"

yazısı səh.4-də

### Bütün ölkə gözünü Heydər Əsədova dikib, o isə susur...

yazısı səh.6-da

### Bakıda yeni "mənzil kompensasiyası davası" yetişir

yazısı səh.7-də

### Tiflisdə Azərbaycan, Türkiyə və Gürcüstan XİN başçılarının görüşü oldu

yazısı səh.8-də

### "Azəryolservis" ASC-dən çat açıqlaması: "Panikaya səbəb yoxdur"

yazısı səh.12-də

### Kriminal xronikada adları keçən prezident uşaqları...

yazısı səh.13-də

## Ankara-Bakı müttəfiqliyinə qarşı terror hədəsi

# RUSİYA ERMƏNİSTANA VERƏCƏYİ ÖLÜMCÜL SİLAHLARIN SİYAHISINI AÇIQLADI - AZƏRBAYCANA MESAJ

Rəsmi Bakının ölkənin İslam koalisiyasına qoşula biləcəyi bəyanatına Şimaldan reaksiya gecikmədi; Kreml və onun "danışan dil"i Jirinovski "erməni maşası"nı yada saldı; şantaj mesajlarının arxasındakı hədəf...



yazısı səh.8-də

## 170 min dollarlıq "Hicran tamaşası"nda "O olmasın, bu olsun" pərdəsi

Adı rüşvət qalmaqalında hallanan komitə sədri Hicran Hüseynova danışdı və məsuliyyəti öz üzərindən atmağa çalışdı; gözlər hüquq-mühafizə orqanlarında

yazısı səh.3-də



### Tağı Əhmədovun pullarının batdığı bankın adı bəlli oldu - "Texnikabank"

yazısı səh.11-də



### Məleykə Abbaszadə korrupsiyada ittiham olunan sözçüsündən danışdı

yazısı səh.7-də



### Hərbi prokuror Ayaz Mütəllibovu Xocalı faciəsinə görə ittiham etdi

yazısı səh.2-də



# Prezident Əfv Komissiyasının yeni tərkibini təsdiqlədi

**Prezident İlham Əliyev Prezident yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Əfv Məsələləri Komissiyasının yeni tərkibi aşağıdakı kimi təsdiq edilib:

- Komissiyanın sədri:

**Ramiz Mehdiyev** - Prezident Administrasiyasının rəhbəri

- Komissiyanın üzvləri:

**Ramil Usubov** - daxili işlər naziri

**Fikrət Məmmədov** - ədliyyə naziri

**Əbülfəs Qarayev** - mədəniyyət və turizm naziri

**Mədət Quliyev** - Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

**Fuad Ələsgərov** - Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri

**Allahşükür Paşazadə** - Şeyxülislam, QMİ-nin sədri

**Əhliman Əmiraslanov** - deputat, Səhiyyə komitəsinin sədri, Tibb Universitetinin kafedra müdiri

**Bəxtiyar Əliyev** - deputat, Elm və təhsil komitəsi sədrinin müavini, BDU-nun kafedra müdiri

**Azay Quliyev** - deputat, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri

**Səttar Möhbalıyev** - deputat, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Elmira Axundova** - deputat, jurnalist

**Məlahət İbrahimqızı** - deputat

**Aynur Sofiyeva** - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

**Rəşad Məcidov** - Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü

**Əliməmməd Nuriyev** - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri

**Mehdi Mehdiyev** - Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri

**Cəmilə Ramazanova** - əməkdar müəllim,

- Komissiyanın katibi

**Kəmalə İsmayılova** - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektorunun müdiri

Sərəncamla Ali Məhkəmənin sədrinə və baş prokurora komissiyanın iclaslarında iştirak etmək tövsiyə olunub.

# "Bu il tələbə qəbulunda yenilik olacaq"

**"Tələbə Qəbulu üzrə Dövlət Komissiyası builki qəbul kampaniyasına başlayıb. Hazırda magistraturaya qəbul davam edir". Bunu fevralın 19-da Şamaxıda vətəndaşları qəbul edən TQDK sədri Məleykə Abbaszadə APA-ya açıqlamasında deyib.**

O, bakalavrların öz ərizələrini qeydiyyata alaraq təsdiqləmələri üçün fevralın 19-nun sonuncu gün olduğunu bildirib: "Fürsətdən istifadə edib bakalavrlara müraciət edərək bildirmək istəyirəm ki, əgər onlar magistratura təhsili almaq istəyirlərsə öz elektron ərizələrini bu gün gecə saat 00:00-dək təqdim edərək təsdiqləsinlər. Bakalavr pilləsinə qəbul imtahanlarını başlamazdan əvvəl biz sınaq imtahanlarını həyata keçirəcəyik. Sınaq imtahanlarının cədvəli artıq TQDK-nin internet saytına yerləşdirilib. İlk sınaq imtahanı aprel ayında olacaq".

Məleykə Abbaszadə bu ilki qəbul qaydalarının yaxın günlərdə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınacağını da qeyd edib: "Biz bununla bağlı müvafiq sənədləri artıq nazirliyə göndərmişik. Bakalavr pilləsinə qəbul olmaq istəyən abituriyentlər narahat olmamalıdır. Qəbul qaydaları qeydiyyata alınan kimi çalışacağıq ki, onları "Abituriyent" jurnalının 2016-cı ilə aid olan birinci nömrəsində dərc edək. Qəbul qaydaları, testlər, qəbul proqramı yarım il ərzində elmi-metodiki seminarlarda müzakirə edilib və biz onları abituriyentlərin istifadəsi üçün hazırlamışıq, həmin materiallar yaxın günlərdə "Abituriyent" jurnalında dərc olunacaq".

**Komissiya sədri ilk dəfə olaraq bu il rus bölməsində oxuyan və Azərbaycan dili üzrə qəbul imtahanı verəcək abituriyentlərin xeyrinə bir yeniliyin olacağını da bildirib:** "Belə ki, yeni qaydaya görə, onların imtahanı məqbulla qiymətləndirilərsə və bu il ali məktəbə qəbul olunmazlarsa, gələn il onlar həmin imtahanı yenidən verməyəcək və aldığı məqbul qiymət iki il nəzərə alınacaq. Bundan başqa builki bakalavr qəbulunda heç bir dəyişiklik olmayacaq".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**

**Bakı şəhəri. (012) 564-63-45; (012) 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Hərbi prokuror Ayaz Mütəllibovu Xocalı faciəsinə görə ittiham etdi

**"Ayaz Mütəllibov Xocalı faciəsinin baş verəcəyini əvvəlcədən bilirdi". APA-nın məlumatına görə, bunu hərbi prokuror Xanlar Vəliyev "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları" kitabının təqdimatında deyib.**



Onun sözlərinə görə, hadisədən sonra DİN faciədə iki adamın öldüyü haqqında məlumat yayıb: "Sonradan Azərbaycan dövləti faciədə 613 nəfərin qətlə yetirildiyini sübut etmək üçün xeyli əziyyət çəkdi".

**X.Vəliyev əlavə edib ki, Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət" kampaniyasının böyük rolu olub**: "Məhz bu kampaniyadan sonra bir sıra ölkələr bunu soyqırımı kimi qəbul edib".

**A.Mütəllibov modern.az-a açıqlamasında deyilənlərin həqiqətə uyğun olmadığını söyləyib**: "Haqqımda deyilənlər həqiqətə uyğun deyil. Dəfələrlə bu məsələ ilə bağlı dəqiqliklə müsahibələrimdə öz açıqlamalarımı vermişəm. Xocalının ağır vəziyyətdə, Şuşanın mühasirədə olduğunu hamımız bilirdik. Bununla bağlı ölçü götürürdük. Amma hadisənin bu cür vəhşicəsinə törədiləcəyindən mənim xəbərim yox idi. Ona görə də indi açıqlamanı bu formada cəmiyyətə çatdırmaq reallıqla bağlı deyil. Xocalı faciəsi böyük faciədir. Həmin dövrlərdə bizim Dağlıq Qarabağda, Xocalıda, Əsgəranda dayağımız, qoşunlarımız yox idi. Orada işləyə bilmirdik".

**Mütəllibov fevralın 25-dən 26-na keçən gecə barədə baş verənlərdən necə xəbər tutması barədə danışıb:** "1992-ci il fevralın 25-i axşam saat 11-ə işləmiş milli təhlükəsizlik naziri İlhüseyn Hüseynov və daxili işlər naziri Tofiq Kərimov çox həyəcanlı vəziyyətdə yanıma gəldilər və "Xocalıda nə isə olub" dedilər. Dedim ki, siz nə baş verdiyini dəqiqləşdirin və mənə xəbər edin. Yarım saatdan sonra onlar filan sayda adamın öldürülməsi xəbərini verdilər. Mən də onların yanında Dağlıq Qarabağ vilayətinin İcraiyyə Komitəsinin sədrinə zəng edib dedim ki, belə məlumat almışam. Bu nədir? Siz faşistsiniz?! Faşistlər belə vəhşilik etməyiblər. O dedi ki, yox elə deyil. Xocalıda adam qalmayıb. Qalan bir qismini birtəhər yerbəyer etmişik. Ərzaq qıtlığına baxmayaraq onlara çörək veririk. Dedim ,sən nə danışırsan, çörək nədir?! 600-700 adam öldürülüb. Yenə cavabında "Bilirsiz, bu elə böyük şey deyil" deyəndə telefonda bir az da kobud danışdım. O vaxta qədər nə mən, nə MTN, nə də DİN Xocalıda öldürülən insanlar barədə məlumatlı olmuşuq".



# Yol polisinin maşınını əzən şəxslə bağlı maraqlı faktlar

**Bakıda yol polisinin avtomobilinin çəkiclə əzən Şahin Bəylərovla bağlı maraqlı faktlar üzə çıxıb. Hadisəni törədən Bəylərov Şahin Mail oğlu 1974-cü ildə Laçın rayonunda anadan olub və Nərimanov rayonu Montin qəsəbəsi, Daş karxanası deyilən ərazidə yaşayırmış. Bakıda kondisioner ustalığı ilə məşğul olan 42 yaşlı Şahin Bəylərov hadisə baş verən zaman oğlunu Nərimanov rayonundakı idman zallarından birinə qoyub qayıdırmış. Ailəli, 2 uşaq atası olan Şahin Bəylərovun hansı səbəbdən üstündə çəkic gəzdirməsinə gəlincə, məlum olub ki, o, şərq idman növləri ilə məşğul olurmuş və məşqlərdə müəyyən fəndləri yerinə yetirmək üçün bu alətdən istifadə edirmiş.**

Lent.az-ın əldə etdiyi digər məlumata görə, Ş.Bəylərov barəsində 3 maddə üzrə cinayət işi açılıb. Onun çəkiclə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinə məxsus BMW markalı, 99 YP 423 dövlət qeydiyyat nişanlı avtomobili əzməsi və üzərindən narkotik maddə tapılmasına görə Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq), 234-cü (narkotik maddələrin qanunsuz dövriyyəsi) və 186-cı (əmlakı qəsdən məhv etmə) maddəsi ilə cinayət işi başlanaraq icraata verilib.



# Azərbaycan Ordusu döyüşə hazırlıq məşqləri keçir

**Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə və hərbi hissələrin döyüşə hazırlıq vəziyyətinə gətirilmə planına əsasən kompleks məşqlər keçirilir və şəxsi heyətin funksional vəzifələrini icraetmə bacarıqları yoxlanılır.**

Musavat.com xəbər verir ki, bu barədə məlumat Müdafiə Nazirliyinin saytından yerləşdirilib.

Məlumata görə, məşqlərdə bölmələrin və heyətlərin döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqları, eləcə də müxtəlif səviyyələrdən olan komandirlərin tabeçilikdə olanları idarəetmə vərdişləri təkmilləşdirilir. Əsas diqqət xəbərdaretmə siqnalları ilə fəaliyyətlərin icrası, məxfilik rejiminə əməl edilməsi ilə məlumatların çatdırılması, silah-sursatın verilmə qaydası, şəxsi heyətin toplanış məntəqələrinə və döyüş təyinatı rayonlarına gizli, maskalanmanın tələblərinə riayət etməklə irəliləməsi, hərbi texnikanın döyüşdə tətbiq olunması məqsədilə çıxışa hazırlanması və digər sualların praktiki məşq etdirilməsinə yönəldilir.

# Elçin Behbudovun qardaşı saxlanıldı

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin mərhum sədri Elçin Behbudovun qardaşı saxlanılıb. Modern.az saytına daxil olan məlumata görə, Elnur Behbudov qatarda bələdçi işləyib.**

O, özünü polis əməkdaşı kimi təqdim edərək müəyyən məbləğ müqabilində insanları işə düzəldəcəyinə dair təminat verirmiş. Hadisə bir neçə dəfə təkrar olunduğundan hüquq-mühafizə orqanları onun izinə düşüb.

Yaxınlarının verdiyi məlumata görə E.Behbudov Yasamal Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

Hazırda istintaq tədbirləri həyata keçirilir.



# Ramil Usubov yeni vəzifələrə təyin edilən polislərlə görüşüb

**Daxili İşlər Nazirliyində (DİN) sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən ali hüquq təhsilli əməkdaşların respublikanın ərazi polis orqan və hissələrində vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.**

Nazirliyin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov ənənəvi olaraq təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini xatırladıb.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov nazirliyə 35 əməkdaşın dəvət edildiyini bildirib, onların və təyin edildikləri vəzifələrin siyahısını elan edib. Nazirliyə dəvət olunanlardan 10 nəfəri əməliyyat müvəkkili, 20-si sahə inspektoru, 5 nəfəri isə kadr, post-patrul xidmətlərinə, həmçinin, məsul növbətçi, yetkinlik yaşına çatmayanların işləri üzrə inspektor vəzifələrinə təyinat alıb.

Tədbirin sonunda daxili işlər naziri gənc əməkdaşlara tapşırıq və tövsiyələrini verib. Nazir gəncləri bir daha təbrik edərək zabit olmağın şərəfli bir iş olduğunu, ümumilikdə onların vətəndaşlara münasibətindən daxili işlər orqanları barədə müsbət və ya mənfi ictimai rəyin yarana biləcəyini, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərilərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, ədalətli və obyektiv olmalarını, cinayətkarlıqla mübarizədə hər zaman cəzanın labüdlüyü prinsipindən, dövlətin və qanunun mənafeyindən çıxış etmələrini tövsiyə edib, çətin və şərəfli xidmətlərində onlara uğurlar arzulayıb.

**Daxili işlər naziri əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# 170 min dollarlıq "Hicran tamaşası"nda "O olmasın, bu olsun" pərdəsi

## Adı rüşvət qalmaqalında hallanan komitə sədri Hicran Hüseynova danışdı və məsuliyyəti öz üzərindən atmağa çalışdı; gözlər hüquq-mühafizə orqanlarında...

**Bir müddətdir adı 170 minlik rüşvət qalmaqalında hallanan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin *(AQUPDK)* sədri Hicran Hüseynova barəsində yazılanlara münasibət bildirib. Aznews.az-ın xəbərinə görə, H.Hüseynova məsələ ilə bağlı hazırda araşdırma getdiyini deyib:**

"Hazırda istintaq gedir. Məsələ ilə bağlı araşdırma aparılır. Əlbəttə ki, bunlar hamısı yalandır, böhtandır. Burada ikinci söhbət ola bilməz. Amma araşdırsınlar. Baxsınlar ki, kimin günahı var, kim hansı işləri törədib?"

**H.Hüseynova jurnalistlərə də çağırış edib:** "Jurnalistlərə, bizim hüquq-mühafizə nümayəndələrimizə də, vəkillərimizə demək istəyirəm ki, gərək etikanı qorusunlar. Hansısa bir adam haqqında bir şey yazanda faktları əvvəlcədən yoxlasınlar. Sonra onların haqqında yazsınlar. Xüsusilə, dövlət məmurları haqqında belə şeyləri yazanda fikirləşsinlər ki, bunlar kimə nöqsandır, bizə, yoxsa onların özlərinə? Ona görə də belə şeyləri fikirləşmək lazımdır".

H.Hüseynovanın tövsiyələrini diqqətə almaq lazımdır. Amma maraqlı məqam budur ki, dövlət məmuru niyə adının bu cür biabırçı işlərə adının qarışmasına şərait yaradıb? Niyə Aparat rəhbərinin komitədə oturub vəzifə alveri açmasına imkan verib?

Tutaq ki, komitədə baş verənlərdən H.Hüseynovanın xəbəri olmayıb. Bunun özü böyük bir dövlət qurumuna rəhbərlik edən məmura yaraşan haldırmı?

Səfər İmanov Komitədəki kabinetini vəzifə alveri şöbəsinə çevirib. Mətbuat bu məsələni yazmalı, komitə sədrinin 4 il ərzində hara baxdığını sual etməli deyil?

Redaksiyamıza daxil olan məlumata görə, AQUPDK-ya ölkə üzrə icra başçılarının müavini təyinatına namizədlər təqdim etmək səlahiyyəti verilib. AQUPDK-nın 170 minlik qalmaqalla bağlı yaydığı rəsmi məlumatlarda ölkə boyu 85 qadının icra başçısının müavini postunu tutduğu vurğulanıb. Belə məlumat var ki, AQUPDK-ya 10-20 rayon üzrə namizədlərin təqdim olunması üçün kvota verilib. Həmin qeyri-rəsmi kvota qadın namizədlər üçün nəzərdə tutulub. Buna görə də Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini postuna Eynur Kərimovun namizəd olaraq təqdim olunması adekvat hesab olunmayıb. Yəni Səfər İmanovun vasitəsi ilə Eynur Kərimovun adı başçı müavini postuna namizəd kimi yazılanda artıq onun namizədliyinin təsdiq edilməyəcəyi məlum olub. Bunun sadə bir səbəbi isə E.Kərimovun güclü cins nümayəndəsi olmasıdır.



Hicran Hüseynova

Yada salaq ki, bir neçə gün əvvəl redaksiyamıza daxil olan məlumatda iddia olunub ki, AQUPDK ilə bağlı qalmaqal bir yox, bir neçə nəfəri əhatə edir. Komitə xətti ilə əvvəllər də başçı müavini təyinatları baş tutub. Belə təyinatlardan biri də Şəmkirin İcra Hakimiyyətində gerçəkləşib. Qaynağımız iddia edib ki, Şəmkirin icra başçısı Alimpaşa Məmmədovun müavini Məleykə Əlizadə də komitə xətti bu vəzifəyə gətirilib. Məlumdur ki, Binəqədi, Şəmkir, Gədəbəy rayonları vergilər naziri Fazil Məmmədovun qeyri-rəsmi qubernatorluğuna daxildir. 170 minlik qalmaqalla bağlı məhz bu rayonların seçilməsinin təsadüfi olmadığı bildirilir. Qeyd olunur ki, AQUPDK sədri ilə vergilər nazirinin işgüzar münasibətləri var. Bu səbəbdən nazirin patronajlığı altında olan rayonların icra hakimiyyətlərində müavin postlarına namizədlərin irəli sürülərkən qeyri-rəsmi olaraq AQUPDK xətti ilə təqdim olunan namizədlərinin təsdiqi real olub. Eynur Kərimovun güclü cinsin nümayəndəsi olaraq siyahıya salınması son nəticədə onun başçı müavini olaraq təsdiqini əngəlləyib. Ortaya belə bir qalmaqal çıxıb.

Bu məlumatlar onu deməyə əsas verir ki, Səfər İmanovun vətəndaşdan 170 min manat alıb "səni başçı müavini təyin etdirəcəyəm" deyə bilməsinin ciddi əsasları olub. Hazırda məsələ ilə bağlı Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılır.

Bu olay dahi Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettasındakı məlum səhnəni xatırladır. Həmin səhnədə Məşədi İbada təqdim olunan gəlin, sonda kişi çıxır...

Elə Sabit Rəhmanın "Hicran" tamaşasında da sonluq Mitoşbala üçün yaxşı qurtarmır. Bu yolda varından-yoxundan olan Mitoşbala axırda Hicrana qovuşa bilmir.

❑ E.HÜSEYNOV

# "İlhamə məndən 45 min manat tələb etdi"

## Həbsdə olan sabiq köməkçisindən xalq artistinə növbəti ittihamlar

**İlhamə Quliyevanın həbs etdirdiyi keçmiş köməkçisi Mehriban Hüseynova "Yeni Müsavat" qəzetinə müraciət yollayıb. O məktubunda yazır: "Mənim əvvəlki müraciətimə dəstək olan hörmətli millət vəkili Çingiz Qənizadəyə, vəkil Aslan İsmayılova, sevimli müğənnilərimiz Aygün Kazımovaya, Flora Kərimovaya, Elza Seyidcahana, Nazpəri Dostəliyevaya, bütün media nümayəndələrinə və məni dəstəkləyən hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, mənim haqq səsimə səs verirsiniz.**

İlhamə Quliyeva oğlu adlandırdığı Orxan və onun dostu Vüqarın məsləhəti ilə məni dərhal həbs etdirmək üçün müəyyən vəzifəli şəxslərə birbaşa sifariş vermişdi. Məni saxlayanda bildirdim ki, İ.Quliyeva mənə bıçaqla xəsarət yetirib, buna heç məhəl də qoymadılar. Əksinə, məni "press" etməklə hədələdilər. Müstəntiq mənə bildirdi ki, "qızın və ya həyat yoldaşın zəng edib İlhamə Quliyeva ilə danışıb xahiş etsinlər, əgər o özü icazə versə səni buraxarıq. Əslində biz də səni həbs etmək istəmirik". Və mənə şərait yaratdılar, həyat yoldaşımla telefonla danışıb məsələni ona dedim. Həyat yoldaşım İ. Quliyeva ilə danışıb bir böyük kimi bu işi mehribançılıqla həll etməyini xahiş edib. O isə ya 45 min manat pul, ya da mənim həbsimin seçimini təklif edib. Sonra qızım İ. Quliyevaya zəng etdikdə o, qızımı hədələyərək təhqir edib. Onun pul təklifini qəbul etmədiyimizə görə mən həbs edildim. Bir daha sübut edildi ki, İ. Quliyeva istədiyi adamı şantaj edir, pul mənimsəmək məqsədilə şərləyərək təzminat alır. Əks halda qnun keşiyində dayanan "dostlarına" sifariş etməklə həbs elətdirir.

**Bəs İ.Quliyevanın özünün törətdiyi çirkin əməllər və cinayətlər niyə ört-basdır olunur? Mənə qarşı törətdiyi cinayət əməllərini bir daha bir-bir nəzərinizə çatdırıram**: müqaviləsiz işə götürüb, işlədiyim 3 ayın əmək haqqını verməyib, yoldaşıma "onu öldür, arxanda mən dayanıram" deməyi, bizdən 45 min manat pul tələb etməyi, bıçaqla məni yaraladığı gün qanunsuz olaraq gecə saat 1-ə qədər məni evində dustaq saxlaması, 2 gün sonra guya barışıq üçün Kəmalənin əlilə məni evinə çağırıb. Özü üçün ailə məhkəməsi quraraq mənim etmədiyim əməlləri boynuma almağımı tələb etməyi, qarşısında diz çökdürərək, keçmiş mətbuat katibi və imkanlı müğənnilərdən ona məlumat verən Faiq Ələkbərli tərəfindən telefona çəkdirməyi, şərəf və ləyaqətimi alçaldaraq həmin süjeti ATV kanalında hüquqlarımı pozaraq yaymağı cinayət əməlidir. Bu da azmış kimi məni güddürərək bir neçə gündən sonra gecə saat 2 radələrində yaşadığım binanın qarşısında Orxan və Vüqarla üstümə soyuq silahla hücum etmələri də reketlikdir. Bunlar yüzlərlə insanın gözü qarşısında olub. 5-ci bölmənin də bu haqda yazılı raportu var. Bu sübutlar azdır ki, İ.Quliyevanı nə istintaqa cəlb edir, nə də barəsində cinayət işi açılmır? İstintaq onun həmin ərəfədəki telefon danışıqlarını araşdırarsa həqiqəti ortaya çıxarda bilər. Görünür onun sifarişlərini yerinə yetirən "dostlarına" bu həqiqət sərf eləmir.



İlhamə Quliyeva



Mehriban Hüseynova

İ.Quliyevanın başıma gətirdiklərindən ürəyi soyumayıb, hələ üstəlik məni atamın, anamın və şəhid qardaşımın da məzarını təhqir etdi. Bunlara dözməyən böyük bacım mənim həbsimdən sonra dünyasını dəyişdi. Mənim bir qardaşım Qarabağ döyüşlərində əlil, bir qardaşım da şəhid oldular ki, İ.Quliyevaya havadarlıq edənlər bizə qarşı bu qədər haqsızlıq etsinlər? Bu qədər dəlil-sübuta niyə göz yumulur? Açıq-aşkar qanunları pozaraq insanların taleyilə oynayırlar. Dəfələrlə ev dustaqlığı üçün vəsatət qaldırsaq da, təmin edilmir. Mən bir daha möhtərəm prezidentimizə, baş prokuror Zakir Qaralova, millət vəkillərinə, media nümayəndələrinə və xalqımıza müraciət edirəm. Bir şəhid bacısı kimi sizlərdən xahiş edirəm İ.Quliyevanın şər və böhtanından xilas edərək mənim azadlığıma dəstək olasınız".

❑ M.MAHRIZLI

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

**Mərkəzi Bankın bir müddət əvvəl uçot dərəcəsini 5 faizə qaldırması ekspertlər tərəfindən fərqli prizmalardan izah edilir. Qeyd edək ki, Mərkəzi Bankın İdarə Heyəti fevralın 15-dən uçot dərəcəsini 5 faiz, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı həddini 2 faiz, yuxarı həddini isə 10 faiz səviyyəsində müəyyən etmək qərarı verib. Qərarın milli valyutaya olan etimadı gücləndirmək, manat depozitlərinin artmasını təşviq etmək, eləcə də pul bazarında formalaşmış konyunktura uyğun olaraq pul siyasəti alətlərinin təkmilləşdirilməsinə şərait yaratmaq məqsədi ilə qəbul edildiyi bildirilir.**




# “Mərkəzi Bankın uçot dərəcəsini yüksəltməsi heç nəyi dəyişməyəcək”

## Ekspertlər bunun əhəmiyyətli təsiri olacağına inanmırlar; çünki kommersiya kreditlərinin faizi arasında fərq kifayət qədər böyükdür...

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, Mərkəzi Bankın uçot dərəcəsini qaldırması əslində öz uçot dərəcəsini inflyasiya səviyyəsinə uyğunlaşdırması ilə bağlıdır. Əgər ümumi qiymətləndirsək, bu, heç nəyi dəyişməyəcək. Çünki Mərkəzi Bankın uçot dərəcəsi simvolik xarakter daşıyır. İndiyə qədər Mərkəzi Bank qlobal maliyyə böhranı və digər dövrlərdə uçot dərəcəsinin dəyişdirilməsi barədə qərar qəbul edib. Bunlar, bu qərarlar kredit bazarına verilib və yığımlara təsir göstərməyib. Ona görə ki, Mərkəzi Bankın uçot dərəcəsi ilə kredit faizləri arasında kəskin fərq var. Mərkəzi Bank tərəfindən istehlak kreditləri üçün müəyyənləşdirilmiş limit 29 faizdir. Mərkəzi Bankın uçot dərəcəsi 3 faiz idi. Bu, o deməkdir ki, Mərkəzi Bankın uçot dərəcəsi ilə kredit faizləri arasında on dəfəyə yaxın fərq var idi, indi 6 dəfə fərq olacaq. Amma bu 6, ya 10 dəfə heç də iqtisadi qanunlarla izah edilə bilməz. Bu, ondan xəbər verir ki, Mərkəzi Bankın uçot dərəcəsi kredit bazarına və kredit faizlərinə təsir göstərmir. Son qərardan sonra kredit faizlərinin dəyişəcəyi gözlənilmir. Çünki kredit faizləri artmayacaq, azalmayacaq. Çünki Mərkəzi Bankın uçot dərəcəsi bazara təsir göstərmir. Mərkəzləşdirilmiş kreditlərin kommersiya banklarına cəlb etdiyi vəsaitlərdə payı azdır. Yenə də cəlb edilən vəsaitlərin təxminən beşdə dördü Mərkəzi Bankdan kənar mənbələr hesabına cəlb edilir. Pay az olduğu üçün birmənalı şəkildə Mərkəzi Bankın mərkəzləşmiş kreditlər resurslarından kommersiya banklarının faydalanmasına imkan vermir. Kredit faizlərinə təsir edəcək səviyyədə faydalanmasına səbəb olmur. Ona görə də uçot dərəcəsinin dəyişdirilməsi birmənalı şəkildə kredit faizlərinə və kredit bazarına hər hansı bir təsiri olmayacaq. Bu, Mərkəzi Bank tərəfindən yüksək inflyasiya səviyyəsinə uçot dərəcəsinin uyğunlaşdırılmasıdır".

**Ekspert Rəşad Əliyev** isə uçot dərəcəsinin daşınmaz əmlak bazarına təsirindən danışıb. Onun sözlərinə görə, milli valyutalarının məzənnəsi müəyyən dərəcədə dayanıqlı olan inkişaf etmiş iqtisadiyyatlarda Mərkəzi Banklar tərəfindən uçot dərəcəsinin artırılması daşınmaz əmlak bazarına təsirsiz keçmir: “Çünki faiz dərəcəsinin artırılması elə ölkələrdə ipoteka kreditləri üzrə faizlərin artımına, daşınmaz əmlaka investisiyalar üçün nəzərdə tutulan kredit resurslarının bahalaşmasına səbəb olur ki, bunlar da tələbata təsir edir. Əlavə olaraq digər maliyyə alətləri üzrə, məsələn istiqrazlarla, əmanətlərlə gəlirliyin artması da onların daşınmaz əmlaklara nisbətən daha cəlbedici edir. Eyni zamanda nəzərə almaq lazımdır ki, faiz dərəcələrinin artımı inflyasiya ilə mübarizəyə yönəlir ki, bu da bir sıra aktivlərin dəyərinin sürətlə artımının qarşısını alır. Demək olmaz ki, faiz dərəcələrinin artımı daşınmaz əmlak bazarına mənfi təsir edir. Bu addım daşınmaz əmlak bazarında ”köpüyün" yaranmasının tam olmasa da nisbi olaraq qarşısını alır. Faiz dərəcələrinin azaldılması isə əksinə olaraq həmişə daşınmaz əmlak bazarıncanlanma yaradır. Bu yanaşma bütün normal inkişaf səviyyəsinə çatmış dayanıqlı iqtisadiyyatlara aiddir. Çünki həmin ölkələrdə iqtisadi artım və inflyasiya bir qayda olaraq eyni istiqamətdə addımlayırlar. Sözsüz, bu hallara müəyyən dövrlərdə baş verən iqtisadi şoklar aid deyil. Ölkəmizin Mərkəzi Bankı tərəfindən uçot dərəcəsinin 5 faizə qaldırılması daşınmaz əmlak bazarına necə təsir etməsindən danışarkən, diqqət mərkəzinə düşən ilk məsələ bunun ipoteka kreditlərinin faizlərinə təsiridir. Qeyd edək ki, əvvəllər güzəştli ipoteka kreditləri dövlət büdcəsindən maliyyələşdirildiyi üçün onlar üzrə faizlər uçot dərəcəsindən az asılı olurdu. Ancaq adi ipoteka kreditləri üzrə faizlərin uçot dərəcələri ilə birbaşa olmasa da, dolayı əlaqəsi var idi. Çünki İpoteka Fondu müəyyən dövrlərdə borc istiqrazları vasitəsilə bazardan orta hesabla 3 faizdən pul cəlb edə bilirdi. Üçot dərəcələrinin artırılması artıq İpoteka Fonduna ucuz pul vəsaitlərini cəlb etməsinə maneə yaradacaq. Bu isə adi ipoteka kreditləri üzrə faiz dərəcəsinin 8 faizdən əhəmiyyətli dərəcədə aşağı salınmasına imkan verməyəcək, yəni hər halda artıq məlumdur ki, bu faizlər 5-6 faizdən aşağı düşməyəcək. Ancaq onu da qeyd edək ki, uçot dərəcəsinin artırılması adi ipoteka kreditləri üzrə faiz dərəcələrinin artımına səbəb olmamalıdır. Digər mühüm məsələ isə tikinti sektoruna yönəldilən kreditlərin faiz dərəcəsinə təsiridir. Burada da biz əhəmiyyətli dəyişiklik gözləmirik, çünki Mərkəzi Bankın uçot dərəcəsinin faizi ilə kommersiya kreditlərinin faizi arasında fərq kifayət qədər böyükdür. Ancaq banklar tərəfindən verilən ipoteka kreditləri üzrə məsələ isə qeyri-müəyyən olacaq. Mərkəzi Bankın qərarından başa düşmək olar ki, atılmış addım manatın dayanıqlığının artırılmasına və qiymət sabitliyinin qorunmasına xidmət edir. Bir sözlə desək, bu, manatın və ona bağlı olan digər aktivlərin, manat istiqrazlarının, depozitlərinin və sair aktiv kimi cəlbediciliyinin artmasına xidmət edir. Bu isə onları təkcə valyuta aktivlərinə yox, eyni zamanda daşınmaz əmlaka nisbətəndə cəlbediciliyini artırmalıdır. Ancaq bütün bunlar hələ ki, gözləntilərdir və təcrübədə necə olacağını zaman göstərəcək. Ancaq görünən odur ki, daşınmaz əmlak bazarındakı mövcud trend yolunu davam etdirəcək".

**Uçot dərəcəsi-Mərkəzi Bankın kommersiya banklarına verdiyi borclar üzrə faiz dərəcəsidir. Azərbaycanda Mərkəzi Bank kredit təşkilatlarına kreditləri məhz bu faiz dərəcəsi ilə verir. Bu günədək həmin rəqəm 3 faiz idi.**

❑ RÖYA

# Məşhurların övladları Türkiyəyə dəstək aksiyasına hazırlaşır

**“Yeni Müsavat”ın əməkdaşları Zamin Hacının və Sevinc Telmanqızının övladı, məktəbli Oğuzun Türkiyənin “İstiqlal” marşını oxuması ictimaiyyətdə böyük marağa səbəb olub. Oğuzun sosial şəbəkələrdə paylaşılan ifasını cəlbedici edən əsas cəhət onun bu günlərdə Ankarada baş verən terror aksiyası ilə eyni günlərə təsadüf etməsidir. Balaca Oğuz bu davranışıyla sanki ağır sınaqlarla üz-üzə qalan qardaş Türkiyəyə dəstək vermiş kimi görünür.**



Bundan ilhamlanaraq “Yeni Müsavat”ın əməkdaşları “Türkiyə üçün oxu” layihəsini hazırlamağa qərar verib. Layihədə məşhur imzaların, tanınan şəxslərin övladlarının Türkiyəyə dəstək üçün “İstiqlal” marşını oxuması nəzərdə tutulur.

Təşəbbüsü irəli sürən, **“Yeni Müsavat”ın baş redaktorunun birinici müavini Azər Ayxan** musavat.com-a bildirib ki, onun da övladları bu layihədə həvəslə iştirak edə bilər: “Oğlum Bakıda Atatürk liseyində təhsil alır. Cocuq vaxtlarından Türkiyəyə sevgiylə böyüyüb. Atatürk liseyində "İstiqlal marşı"nın oxunması zatən ənənədir. Biz qardaş Türkiyəyə bu cür projeylə dəstək verib onlarla öz həmrəyliyimizi bildirməyə çalışacağıq".

**Yazar Aysel Əlizadə** bu ideyanın çox maraqlı olacağına ümid etdiyini deyib:

“Türkiyəyə dəstək üçün atılan bu addımı bəyənirəm. Xüsusən də ideyanın "Yeni Müsavat" tərəfindən irəli sürülməsi təqdirəlayiqdir, xoşdur. Təbii ki, qızım da bu layihədə iştirak edəcək və buna çox sevinirəm".

**AXP sədri Pənah Hüseynin** nəvələrinin də bu layihədə iştirak edəcəyi gözlənilir. Bu barədə “Yeni Müsavat” qəzetinin vəkili, Pənah Hüseynin oğlu Vaqif Hüseyn bildirib:

“İnanıram ki, çox maraqlı layihə olacaq. Övladlarımızın Türkiyəyə dəstək üçün oxuması bizim üçün çox xoş olar”.

**Musavat.com saytının redaktoru Xalid Kazımlı** da bu aksiyada oğlu Nihadın iştirak edəcəyini deyib: “Nihad gitara ifa edir, oxuyur. İnanıram ki, o, bu layihədə həvəslə və istedadla təmsil olunacaq”.

Qeyd edək ki, artıq bir neçə ildir ki, Azərbaycanda bu cür layihələr keçirilir. İlk olaraq ictimaiyyətə “Birlikdə oxu” layihəsi təqdim edilmişdi. Onun ardınca isə məşhurlar “Səslərimizi Qarabağ üçün birləşdirək!” şüarı altında Qarabağ üçün oxumuşdular.

Xatırladaq ki, analoji layihələr dünyanın 50-dən çox ölkəsində keçirilir. Layihə ilk dəfə ABŞ-da reallaşdırılıb və “Playing for Change” (Dəyişiklik üçün çal) adı ilə məşhurlaşıb. Qardaş Türkiyədə isə layihə “Doğa için çal” (Təbiət üçün çal) adı altında hazırlanır.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

# Ankara faciəsindəki “Rusiya ləpiri” aydın görünməyə başlayır...

## Türkiyədə terror həyəcanı davam edir; qardaş ölkədə hərbiçilərin olduğu bina çöküb; Amerikanın kürd məsələsindəki ikili mövqeyi Türkiyənin səbir kasasını daşırıb...

**Fevralın 17-də Türkiyənin paytaxtı Ankarada törədilən dəhşətli terror hadisəsi ətrafında hər keçən gün iddiaların sayı çoxalmağa başlayır. Artıq indiyə qədər 28 nəfərin öldüyü, 61 nəfərin yaralandığı faciə ilə bağlı 17 nəfər şübhəli şəxs qismində saxlanılıb. Qarşıdakı günlərdə saxlanılanların sayının artacağı istisna olunmur.**



**Türkiyənin baş naziri Əhməd Davudoğlu terrorla bağlı heç kimin göz yaşına rəhm edilməyəcəyini, günahkarların ciddi cəzalandırılacağını bəyan edib:** “Ankarada 28 vətəndaşımızı itirdiyimiz terror aksiyası bütün Türkiyəyə, qardaşlığımıza yönəlib. Terroru həyata keçirən YPG bölücü terror təşkilatının bir qoludur, birlikdə hərəkət edirlər. Türkiyə bütövdür, 78 milyon bu çətinliyi də dəf edəcək gücə və qüdrətə sahibdir. Biz burdayıq, bu torpaqlardayıq, əbədi olaraq da burada qalacağıq”.

Qardaş ölkə Ankara faciəsinin fəsadlarını aradan qaldırmamış, yeni təhlükələrlə üz-üzə qalıb. Belə ki, Diyarbəkirin Dəclə rayonunda polisin keçirdiyi əməliyyat zamanı içərisində 500 kq partlayıcı maddə olan bir avtomobil saxlanılıb. Eyni zamanda, Diyarbəkir vilayətində hərbiçilərin olduğu köhnə bina çöküb. Binada olan 9 nəfər xilas olsa da, 3 nəfərin axtarışları davam edir. Hadisənin hansı səbəbdən baş verdiyi məlum deyil.

Bu arada Türkiyə ordusu Diyarbəkir vilayətinin Sur qəsəbəsində antiterror əməliyyatı zamanı itki verib.

Musavat.com xəbər verir ki, qısıbıdı terrorçuların qazdığı xəndəklərin bağlanması, qurulan barrikadaların ləğv edilməsi və gizlədilən partlayıcıların zərərsizləşdirilməsi istiqamətində əməliyyatlar davam edir. Əməliyyat zamanı PKK terrorçularının hücumu nəticəsində 2 əsgər və 2 polis şəhid olub.

Şırnak vilayətinin İdil qəsəbəsində isə PKK-ya qarşı əməliyyat zamanı 4 terrorçu məhv edilib.

Bütün bunlar Türkiyənin yeni faciələr yaşa biləcəyinin ilkin anonslarını verib. Qardaş ölkədə bütün təhlükəsizlik qurumları gərgin iş rejiminə keçiblər. Ankara faciəsini törədən terrorçu Salih Necarın PKK-nın Suriyadakı “PYD” və “YPG” qollarının üzvü olduğu artıq dəqiqləşib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və baş nazir Əhməd Davudoğlu bunu açıq şəkildə bəyan ediblər. Xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıda həmkarı Elmar Məmmədyarovla görüşü zamanı açıq şəkildə Suriyadakı PYD rəhbərinin Bəşər Əsəddən təlimat aldığını bildirib: “PYD/YPG-nin tərkibində Qəndildən gələn PKK-çılar var. Bizdə kəşfiyyat məlumatları var. PYD lideri Saleh Müslim Suriya rejimi tərəfindən Qəndildən çağrılıb. Türkiyəyə qarşı hücumlar təşkil etmək üçün bir başa Əsədin özündən təlimat alır. Bütün sənəd və məlumatlar bizdə mövcuddur”.

Çavuşoğlu fevralın 19-da Tiflisdə Gürcüstan və Azərbaycanın xarici işlər nazirləri ilə görüşündə də açıq şəkildə bəyan edib ki, terrora baxmayaraq, Türkiyə xarici siyasətini dəyişməyəcək.



### Qabil Hüseynli: “Ərdoğanın Bakıya səfərinin kökündə nələrin durduğunu Rusiyadan yaxşı bilən olmazdı”

Qeyd edək ki, Ankara faciəsində Rusiya izi axtaranların sayı durmadan artır. Xüsusilə, Ərdoğanın Azərbaycana, eləcə də, Davudoğlunun Brüsselə səfərləri ərəfəsinə hadisənin təsadüf etməsi, belə iddiaların sayının çoxalmasına səbəb olub. Terrorçunun PKK-nın Suriya qoluna məxsus olması, terror aktının Türkiyədə Hərbi Təyyarəçilər Günü baş verməsi faciədən Rusiyanın xəbərdar olması ehtimallarını gücləndirib. Doğrudur, şimal qonşumuzun rəhbərliyi səviyyəsində terror aktı kəskin şəkildə pislənilib və qardaş ölkəyə, eləcə də, faciə nəticəsində ölənlərin yaxınlarına başsağlığı verilib. Lakin bu da Rusiyanın Ankara faciəsində əlinin olması ehtimallarını azaltmayıb. Son üç ayda Rusiya-Türkiyə münasibətlərinin kritik həddə çatmasının terrorda rus izinin axtarılmasına səbəb olduğu sirr deyil. Təsadüfi deyil ki, Ankara faciəsinin Rusiya ilə əlaqəsinin olması barədə hələ ki bir sübut yoxdur. Bəlkə də var, amma ictimaiyyət xəbərsizdir...

Amma nədən Ankara terrorunu törədilən kimi gözlərin Rusiya tərəf dikilməyi suallar doğurur.

**Politoloq Qabil Hüseynli** Ankara terrorunda Rusiyanın əlinin olmasını düşündüyünü söylədi: “Müxtəlif faktlara söykənərək bu qənaətə gəlmişəm. Bu faktlardan birincisi odur ki, Rusiya son vaxtlar hər vasitə ilə Türkiyə ilə münasibətləri gərginləşdirməyə səy göstərir. Hətta Türkiyəni hərbi qarşıdurmaya yönləndirməyə çalışır. Bu məqsədlə Rusiya müəyyən hazırlıqlar da görür. Ermənistana silah göndərilməsinin miqdarını xeyli dərəcədə artırıb. Sözün həqiqi mənasında Ermənistan silah deposuna çevrilir. Eyni zamanda, Şimali Qafqazda 5-ci ordu deyilən yeni qüvvə formalaşdırılır. Bunlar Türkiyə ilə döyüş üçün nəzərdə tutulmuş ordu hissələridir. Krımda isə Rusiyanın artıq hərbi bazası, taktiki nüvə silahları var. Sanki Rusiya yeni dünya müharibəsinə hazırlaşır. Düzdür, Türkiyə tərəfi müharibə istəmədiyini deyir. Amma bildirirəm ki, Ankara terrorunun törədilməsində dünyanın böyük güclərindən birinin əli olduğu görünür. Çox yüksək səviyyədə hazırlanmış bir terror aktıdır. Terror baş verən gün Türkiyə Hərbi Hava Qüvvələrinin bayramı hesab olunurdu. Hərbiçilərin nə zaman hadisə baş verən yerdən keçəcəyini, özü də avtomobildə olanların çoxunun yüksək rütbəli hərbiçilər olacağını yalnız güclü kəşfiyyat nəticəsində müəyyən etmək olardı. Burada kəşfiyyatın bütün növlərindən istifadə ediblər. Avtomobildəki partlayıcı maddələrə diqqət yetirsək, o qədər ağır maddənin Türkiyəyə gətirilməsi elə də asan məsələ deyil. Bunu yük maşını ilə gətirmək də mümkün deyil. Görünür, partlayıcı maddələri hissə-hissə minik maşınında gətiriblər. Hadisəni törədən terrorçunun ciddi sürətdə təlimatlandırıldığı da görünür. O kürd uzun müddət hazırlıq keçib”.

Politoloq terror ətrafında cərəyan edən iddialara da münasibət bildirdi: “Bu iddialar doğru yozmalardır. Ərdoğanın Bakıya səfərinin kökündə nələrin durduğunu Rusiyadan yaxşı bilən olmazdı. Rusiya yaxşı bilirdi ki, Ərdoğan Bakını Müsəlman İttifaqına qoşmağa cəhd edəcək. Üstəlik Davudoğlu da Brüssələ gedəcəkdi. Miqrasiya məsələləri müzakirə olunacaqdır. Miqrant məsələlərinin əsl səbəbkarının Rusiya olduğu birmənalı şəkildə Qərb dövlətləri tərəfindən vurğulanır. Brüsseldə Rusiyanın ciddi şəkildə tənqid ediləcəyi, ondan Suriyada hava hücumlarının dayandırılmasının tələb ediləcəyi gözlənilirdi. Burada da ən çox arqumentlərlə çıxış edəcək, Rusiyanı faktlarla ifşa edəcək şəxs Türkiyənin baş naziri idi. Ərdoğanın Bakı, Davudoğlunun Brüssel səfərinə yalnız Rusiya mane ola bilərdi. Yüksək peşəkarlıqla hazırlanan bu əməliyyat Rusiya, istərsə də, ABŞ kimi iri dövlətlər tərəfindən təşkil oluna bilərdi”.

**Q.Hüseynli terrorçunun YPG üzvü olmasının təsadüf olmadığını da qeyd etdi:** “Terrorçunun kürd olması aşkarlanıb. Bu şəxsi xüsusi olaraq, qaçqınlarla birlikdə sərhəddən keçiriblər. Yaxşı ki, sərhəddən keçərkən, onun barmaq izləri alınıb. Buna görə onun parçalanmış bədənin hissələri əsasında şəxsiyyəti müəyyən edilib. Kürdlərin bu təşkilatlarını SSRİ dövründə ruslar yaradıblar. Onlar da maliyyələşdirirdilər”.

Onu da qeyd edək ki, Ankara terror baş verdiyi andan Türkiyə ordusu PKK terror təşkilatının Suriya qolu olan PYD-nin mövqelərini güclü artilleriya atəşinə tutub. Hazırda əməliyyatlar davam edir.

Türkiyənin bölgədə keçirdiyi əməliyyatlardan sonra ABŞ tərəfinin sərgilədiyi ikili mövqe qardaş ölkənin səbir kasasını doldurub. Ankara faciəsinə münasibət bildirən ABŞ Dövlət Departamentinin sözçüsü Con Kirbi açıq şəkildə Türkiyədən Suriya ərazisindəki YPG düşərgələrini top atəşinə tutmağı dayandırmağı xahiş edib: “Türkiyənin dünyanın terror təhlükəsi ilə üz-üzə qalan hər hansı ölkəsi kimi xalqını hücumlardan qorumaq üçün bütün mümkün imkanlardan istifadə etmək haqqı var. Hazırda YPG-nin Suriyada daha konstruktiv addımlar atması və Türkiyənin sərhədin qarşı tərəfindən top atəşlarını dayandırmasını arzulayırıq”.

C.Kirbi bildirib ki, Suriyada İŞİD-a qarşı effektli mübarizəni kürd döyüşçülər aparır. Departament sözçüsü Türkiyənin kürd döyüşçülərin ölkə sərhədlərinə yaxınlaşmasından keçirdiyi narahatlığı başa düşdüklərini diqqətə çatdırıb: “Biz kürdlərlə danışıqlar aparmağa davam edəcəyik. Suriyada kürdlərə yarım muxtariyyət verilməsini dəstəkləmirik”.

Amerikanın son günlərdəki mövqeyi Türkiyə tərəfdən birmənalı qarşılanmayıb. Prezident Ərdoğan PKK məsələsində ABŞ-ın konkret mövqe qoymasını, əks təqdirdə, Türkiyə kimi bir müttəfiqi itirəcəyinin anonsunu verib.

**Ankara faciəsi ölkəmizdə də böyük hüznlə qarşılanıb. Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısına gedən vətəndaşlarımız nümayəndəliyin önünə gül-çiçək dəstələri düzürlər. Fevralın 18-də Nida Vətəndaş Hərəkatının üzvləri Türkiyənin Bakıdakı səfirliyinin önünə gələrək, qərənfil qoyublar. Gənclər bir dəqiqəlik sükutla vəfat edənlərin ruhunu yad ediblər.**

❑ **Cavanşir ABBASLI**



# Rusiyalı politoloqdan sensasion iddia

## “Ankara Bakıdan Ermənistana zərbə endirməyi tələb edəcək...”

**Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin Tiflis görüşü Rusiyada da diqqətlə izlənilir. “Bu görüşün ən aktiv iştirakçısı Türkiyədir. Ankara özünün Rusiyaya qarşı siyasətinə iki ölkədən dəstək almağa çalışır”. Musavat.com-un məlumatına görə, bunu Moskvadakı Hərbi-Siyasi Tədqiqatlar Mərkəzinin eksperti Mixail Aleksandrov bildirib.**

“Gürcüstan birmənalı şəkildə Türkiyəni müdafiə edir. Azərbaycan isə iki stulda oturmağa cəhd edir” - deyən analitik hesab edir ki, Türkiyə həmçinin, Azərbaycandan neft-qaz nəqlinin yalnız Gürcüstan vasitəsilə olmasını istəyir, çünki “istisna deyil ki, Rusiya Türkiyəyə qaz tədarükünü dayandırsın”.

Politoloqun sözlərinə görə, Tiflis görüşündə postsovet məkanında Rusiyaya qarşı müttəfiqlər axtarışı ilə yanaşı, hərbi məsələlər də var.

“Türkiyə ilə müharibə variantında Rusiya öz qoşunlarını Gürcüstan vasitəsilə Ermənistana istiqamətləndirəcək. Məhz buna görə, Ankara Acarıstana qoşun yeridilməsinin mümkünlüyü ilə bağlı Tiflislə danışıqlar aparacaq. Bu kontekstdə Türkiyə habelə Azərbaycandan antierməni fəaliyyətini gücləndirməyi və Ermənistana hərbi zərbə endirməyi tələb edəcək. Çünki Türkiyə ilə müharibə başlasa, Ermənistan da ona qoşulmalı olacaq” - qeyd edib ekspert.

Onun qənaətincə, bu halda Bakının missiyası erməni hərbi qüvvələrinin Azərbaycan istiqamətinə cəlb olunmağa məcbur etmək olacaq.

**“Ancaq Bakı çətin ki, buna getsin, nədən ki, əks halda Rusiya Azərbaycana ordu yeridəcək” - iddia edib politoloq**



# Şir döyüşdürmə poliqonu

Xalid KAZIMLI

**Son illərdə dəfələrlə olduğu kimi, yenə də ölkəmizdə yaşayan ruspərəstlərlə Türkiyəyə rəğbət bəsləyənlərin arasında söz, atmaca dueli yaşanır.**

Hələlik bu mübahisələr virtual aləmdədir, sosial şəbəkələrdə gedir. Güman ki, bu dartışma, çəkişmə elə orda da qalacaq. Bizimki budur: danışmaq, yazmaq, mübahisə etmək, sözlə dalaşmaq.

Feillə işimiz yoxdur. Yəni qəlbində Türkiyə sevgisi daşıyanlarla Rusiya nostaljisi yaşadanlar sabah küçəyə çıxıb dalaşası, qırğın salası deyillər. Eləcə, peşəkar və sosial mediada atışıb enerjilərini boşaldacaqlar.

Bu, bir növ idman azarkeşliyi kimidir. Ölkəmizdə yaşaya-yaşaya uzaq İspaniyadakı "Real" və "Barselona" futbol klublarına azarkeşlik edən, vaxtaşırı bir-birinə tikanlı atmacalar atan azarkeşlər kimi, bizimkilər də Rusiya və Türkiyəyə azarkeşlik edirlər. Şir döyüşdürmə prosesi gedir.

Hərçənd birincidən fərqli olaraq, ikincidə maddi maraq, siyasi mənafe məsələsi də var. "Real" qələbə qazananda azarkeşlərimizin cibinə bir şey girmirsə, Rusiyanın və ya Türkiyənin üstün olacağı təqdirdə özünün üstün mövqeyə gələ biləcəyini, nəsə əldə edəcəyini düşünənlər var.

Axır həftələr bu azarkeşliyi ifrat şəkildə şiddətləndirən başlıca səbəb iki qonşu dövlət arasındakı ixtilafdır.

Hazırda Rusiya və Türkiyə Suriya müharibəsində tutduqları fərqli, bir-birinə zidd mövqe üzündən münaqişə vəziyyətindədirlər. Nifaq dərinləşdikcə dərinləşir. Ona görə də bu dövlətlərin gərgin münasibəti ölkəmizin daxilində onlara rəğbət bəsləyənlərin münasibətlərinə inikas edib, uçurum yaradıb.

Əksəriyyət isə gözləmə mövqeyindədir. Onlar hansı dövlətin tərəfini tutmağın daha faydalı olduğunu müəyyənləşdirməyə çalışırlar.

Burada "tərəf tutmaq" heç də şəxsi mənafe baxımından başa düşülməməlidir, tərəddüd edənlərin çoxu daha çox bu münaqişədən ölkəmizin ziyansız çıxmasını umanlardır.

Xarici işlər nazirinin müavini Araz Əzimovun qalmaqallı açıqlamasına münasibət də sırf bu müstəvidə əks-səda doğurdu.

Əzimovu haqlı sayanlar heç də onun Suriya prezidenti Bəşər Əsədin lehinə olan ifadələrə görə təqdir etmirdilər, əsas məsələ o idi ki, Əzimov Rusiya deyəni deyirdi. Sabah Rusiya Əsədə qarşı olsa, amma Əzimov yenə Suriya prezidentinə qahmar çıxsa, bu gün onun doğru mövqedə olduğunu bildirənlər, sabah onun səhv etdiyini deyəcəklər.

Bu məsələdə məhək daşı Rusiyadır. Bizim ruspərəstlər Kremlə baxıb düzlənirlər, Bəşər Əsəd və ya Suriyanın ərazi bütövlüyü onların vecinə deyil. Elə bu gün Rusiya Suriyanın bölünməsinin vacib olduğunu bəyan etsə, bizimkilər də "Suriya bölünməlidir" hayqıracaqlar.

Bu üzdəndir ki, bir çox ruspərəstlər artıq yavaş-yavaş qımıldanmağa başlayıblar ki, fevralın 17-də Ankarada baş verən dəhşətli terror aktını Türkiyə hökuməti özü təşkil edib - guya ki, Suriyaya hərbi müdaxilə etməyə, PKK-nın qolu olan PYD-ni terrorçu təşkilat olaraq dünyaya qəbul etdirməyə görə.

Bu yeni tipli versiya deyil. Demək olar ki, eyni adamlar 11 sentyabr teraktlarını ABŞ-ın özünün təşkil etdiyini 15 ildir israrla deyir, yazırlar.

İki il öncə yerli ruspərəstlər Ukrayna ərazisi üzərində Malayziyaya aid təyyarənin rusyanlı separatçılar tərəfindən vurulmasının gün kimi aydın olmasına baxmayaraq, cinayəti Ukraynanın ayağına yazmağa çalışırdılar.

Ümumiyyətlə, bu cür düşünənlər bütün cəbhələrdə, cinahlarda var. Vaxtilə Rusiyada tüğyan edən terror aktlarını da prezident Putinin öz əməli olduğunu bəyan edənlər vardı. Guya ki, o, bundan Çeçenistana divan tutmaq üçün istifadə edib. Sanki başqa cür mümkün deyilmiş, mütləq əlində əsas olmalıymış.

Bu qədər ağlasığmaz versiyaları irəli sürənlər tarixdən örnək götürürlər, Hitler nasistləri tərəfindən yandırılan reyxstaq nümunəsinə istinad edirlər. Ancaq indiki dövrdə heç bir hakimiyyət öz paytaxtında o cür dəhşətli, böyük insan tələfatı ilə nəticələnən terror aktının təşkilinə qol qoymaz.

**Burada itki qazancı on qat üstələyirsə, o kimin nəyinə lazımdır? Bu, təxminən qaranlıqda itmiş 20 qəpiyi tapmaq üçün 100-lük əskinası yandırıb işıq salmaq kimi bir şeydir.**

# Devalvasiyanın 2 ayı-iqtidar təhlükədən qurtuldumu?

## Hakimiyyəti gözləyəcək təhlükə görünmür; qarşıdakı zamanla bağlı proqnozlar ürəkaçan deyil

**Azərbaycanda iqtisadi böhranın başlanmasından iki ay ötür. Bu müddət ərzində ölkə iqtidarının ciddi problemlərlə üzləşəcəyi barədə ictimaiyyət arasında fikirlər dolaşırdı. Amma görünən odur ki, hazırda hakimiyyəti gözləyəcək bir təhlükə müşahidə olunmur.**

Nə xalq etiraz edir, nə də ölkə müxalifəti etiraz edəcək durumda görünür. Hər kəs gözləmə mövqeyindədir. Doğrudur, qarşıdakı zamanla bağlı proqnozlar elə də ürəkaçan deyil. Ekspertlər Novruz bayramı ərəfəsində üçüncü devalvasiyanın olacağını proqnozlaşdırırlar. Amma buna inananlar çoxluq təşkil etmirlər. Əksəriyyət hakimiyyətin iqtisadi böhranın qarşısını bu vəziyyətdə aldığına, eləcə də, yeni devalvasiyaya imkan verməyəcəyinə inanır. Çünki iqtisadi böhran artarsa, üçüncü devalvasiya baş verərsə, iqtidarın özünə ciddi təhlükə yarana bilər.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə fərqli düşünür. O, hesab edir ki, hakimiyyəti gözləyən təhlükələr hələ davam edir: "Mahiyyət etibarlı ilə heç bir problem həll olunmayıb. Artırılan maaşlar devalvasiyaya adekvat deyil. Əhali küçələrə çıxmırsa, yaxud müxalifət xaos, qarşıdurmanın tərəfdarı deyilsə, bu o demək deyil ki, hakimiyyət problemləri həll edib. Əslində müxalifət və xalqın dövlət, dövlətçiliyə münasibəti fərqlidir. İqtidar problemləri həll etməyib. Ardıcıl şəkildə problemləri həll etməklə məşğul olmalıdır. Hələ ki insanlar gözləmə mövqeyindədir. Dəyişikliklərin olacağını və effekt verəcəyini gözləyirlər. Amma bununla iqtidarın problemləri həll etdiyini düşünmək doğru deyil".



İqbal Ağazadə



Fəzail Ağamalı

**İqtidaryönlü deputat Fəzail Ağamalı** bildirdi ki, dünyada cərəyan edən maliyyə böhranı bütün ölkələrə olduğu kimi, Azərbaycana da təsiri qaçılmaz idi: "Dünyada cərəyan edən iqtisadi böhranın ölkəmizə də təsir edəcəyini görən İlham Əliyev dərhal qabaqlayıcı tədbirlər gördü. Manatın ikinci dəfə devalvasiyaya uğramasından sonra ölkə başçısı tərəfindən bir sıra ciddi toplantılar keçirildi. Daha konkret məqamlar üzərində dayanıldı. Nazirlərin və rayon icra başçılarının birgə toplantıları keçirildi. Konkret hədəflər müəyyənləşdirildi. Manatın dəyərini yüksəltmək üçün ciddi addımlar atıldı. Bu gün biz görülən işlərin nəticələrini görməkdəyik. Manat artıq möhkəmləndiyini ifadə etməkdədir. Ümid edirəm ki, bu sona qədər davam edəcək. Sahibkarlığın inkişafı üçün ciddi addımlar atıldı. Vergi və gömrük sistemində sahibkarlığın inkişafı üçün radikal islahatlar keçirildi. Hazırda bu islahatlar davam edir. Tikinti sektorunun ölkəmizdə inkişafına da nəfəs verildi. Ölkə başçısının tapşırığı əsasında fövqəladə hallar naziri Kəmaləddin Heydərov tikinti sektorunun rəhbərləri ilə görüşündə cənab prezidentin tapşırıqlarını onların diqqətinə çatdırdı. Bildirdi ki, tikinti sektorunun inkişafına şərait yaradılacaq, bürokratik əngəllər aradan qaldırılacaq. Düşünürəm ki, tikinti sektoruna qarşı olan maneələrin aradan qaldırılmasının Kəmaləddin Heydərova tapşırılması doğru qərardır. Çünki o, işinə məsuliyyətli yanaşan, ölkə başçısının tapşırıqlarını məharətlə yerinə yetirən bir nazirdir. Kənd təsərrüfatı ilə bağlı ciddi işlər aparılır. Nazir Heydər Əsədovun apardığı islahatlar daha geniş şəkil alacaq. Bütün bu proseslərdə İqtisadi İnkişaf Nazirliyi də üzərinə düşən işləri layiqincə yerinə yetirir. Bütün siyasi və iqtisadi qurumlar sözün həqiqi mənasında gücləndirilmiş iş rejimində çalışır. Bəlli olduğu kimi, fevral ayında yeni iş yerlərinin açılması ilə bağlı ciddi işlər görülməkdədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əhalinin işlə təmin olunması üçün təqdirəlayiq işlər aparır.

**Deputat ölkəmizin təhlükələrdən sığortalandığını da qeyd etdi:** "Görülən bütün işlər ölkəmizə ciddi üstünlüklər gətirəcək. Azərbaycan onu gözləyən təhlükələrdən sığortalanıb. Bu sığortalanma əsaslı mahiyyət daşıyır. Əminəm ki, prezidentin atdığı addımlar ölkəmizi təhlükələrdən azad edib. Allah bizi müharibələrdən qorusun. Bizdən asılı olmayan müharibə təhlükəsi düz burnumuzun ucundadır. Təki bu müharibədən ölkəmiz və dünya xilas olsun. Bunlar olmasa, tam məsuliyyətlə deyirəm ki, ölkəmizə heç bir problem yaşamayacaq".

❑ Cavanşir ABBASLI

# Bütün ölkə gözünü Heydər Əsədova dikib, o isə...

## Kənd təsərrüfatı naziri iqtisadi krizis günlərində niyə təkliflər paketi hazırlamır?

**Manatın devalvasiyası, ölkədəki iqtisadi böhran alternativ çıxış yolları ilə bağlı müzakirələri də aktuallaşdırıb. Elə gün olmur ki, eksperlər bununla bağlı yeni təkliflər səsləndirməsin, partiyalar təklif paketləri hazırlamasın. Bütün təkliflərin mərkəzində yerli kənd təsərrüfatı sahəsinin inkişafı dayanır. Məsələn, prezident İlham Əliyev də aqrar sahə hesabına ixracatın artırılması barədə fikirlər söyləyib: "Bizim əsas arzumuz ondan ibarətdir ki, bütün bölgələrdə kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Çünki kənd təsərrüfatının inkişafı iş yerlərinin açılması, yerli istehsalın yaradılması deməkdir. Eyni zamanda, hesab edirəm ki, kənd təsərrüfatı neft və qazdan sonra bizim əsas ixrac məhsulumuz olmalıdır və olacaqdır" .**

Bundan başqa, İlham Əliyev bildirib ki, kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya layihələri görülüb, Taxtakörpü, Şəmkir su anbarları tikilib, Ceyranbatanda müasir təmizləmə qurğusu yaradılıb: "Beləliklə, Azərbaycanda on minlərlə hektar suvarılacaq, suvarılmalıdır. Şimal rayonlarında və Şəmkirdə tezliklə fermer təsərrüfatları yaradılmalıdır. Heyvandarlığın inkişafı ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi təkliflər təqdim edib. Biz əvvəllər cins mallar alırdıq, yenə alınacaq. Ancaq süni mayalandırma inkişaf etdirilməlidir".

**Dövlət başçısı qeyd edib ki, bitkiçilikdə də böyük inkişaf var:** "Biz pambıqçılıqla daha geniş məşğul olmalıyıq. Pambıqçılıq həm çoxlu sayda iş yeri, bu, həm də valyuta gətirən məhsul deməkdir. Pambığı yığan insanlara verilən pul artırılmalıdır. Mənə verilən məlumata görə, 1 kq pambığı yığanlara 42 qəpik verilir. Bu, azdır, qiymət əhəmiyyətli dərəcədə qaldırılmalıdır. Biz tütünçülük və çayçılığı da inkişaf etdirməli, canlandırmalıyıq".



Heydər Əsədov

Ekspertlər də bu məsələni xarici təcrübə ilə müqayisə edir. Məsələn, hazırda əksər Avropa ölkələri məhz kənd təsərrüfatı hesabına ayaqda dururlar. Belçika özünü ərzaqla təmin etməklə yanaşı, həm də sırf ərzaq məhsullarının ixracından 45-50 milyard dollara yaxın gəlir əldə edir. Hollandiya təkcə çiçək toxumlarının və çiçəklərin ixracından ildə 12 milyard dollar vəsait qazanır. Bu stimullaşdırma proqramları və vergi güzəştləri vasitəsilə həyata keçirildi. Avropa ölkələrində artıq oturuşmuş bir sistem mövcuddur.

**Bu ərəfədə görülən işlər, həyata keçirilən yeni layihələr, daxili bazarın inkişafı üçün atılan addımlarla bağlı "Yeni Müsavat" bir neçə dəfə kənd təsərrüfatı naziri Heydər Əsədovdan müsahibə götürməyə cəhd edib. Amma israrlı zənglərə cavab verməyən nazir bununla da suallarımızı cavabsız qoyub. Nəinki "Yeni Müsavat"a, heç bir media orqanına danışmır. Bununla da ölkənin gözünü dikdiyi bir sahə ilə bağlı bütün suallar cavabsız qalır. Hələ də insanlar üçün qaranlıq qalır ki, bu cür böyük sahəyə nəzarət edən şəxsin, bu qurumun iqtisadi böhranla bağlı hansı təkliflər paketi var.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

# Bakıda yeni “kompensasiya davası” yetişir

## Məmurlar məsələnin məsuliyyətini Abid Şərifovun üzərinə atır

**Bakıda 100-dən çox ailənin yaşadığı 2 üçmərtəbəli bina sökülƏcək. Yasamal rayonu, M.A Əliyev küçəsindəki 150 və 152 saylı binalarda yaşayan sakinlərə 3 gün əvvəl xəbərdarlıq edilib ki, bir həftə ərzində evləri boşaltsınlar.**



Musavat.com xəbər verir ki, istifadə müddətini uzun illərdir başa vurmuş binaların sakinləri verilən kompensasiya ilə razılaşmırlar. Yasamal Rayon İcra Hakimiyyətindən sakinlərə əvvəlcə 3 min manat veriləcəyi deyilsə də, sonradan Mənzil Kommunal İstismar Sahəsi (MKİS) bu məbləğin 1500 manat olduğunu açıqlayıb.

Sakinlərin sözlərinə görə, onlara 300 manat ödənilir ki, kirayə ev tutub evlərini boşaltsınlar. Söküntüyə səbəb kimi binaların qəzalı vəziyyətdə olması göstərilir.

20 ildən çoxdur ki, xarabalığa çevirilən binalarda yaşayış mümkünsüz hala gəlib. Sakinlər də binadan köçmək istəyirlər. Lakin onları qane edəcək kompensasiya tələb edirlər. Sakinlər deyir ki, mənzillər 15, 20, 30 kvadratmetrdir. Buna görə də aldıqları pulla şəhərdə yeni ev almaq mümkün deyil.



Bu binlarda 1993-cü ildən məskunlaşan qaçqın və məcburi köçkünlər də var. MKİS-dən deyilib ki, onlar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət etməli və komitənin balansında olan mənzillərdən almalıdırlar. Lakin komitədən bildirilib ki, onlar məsələdən xəbərdar deyillər və kömək edə bilməzlər.

Xəbərdarlıq edilən gündən sakinlər MKİS-ə və icra hakimiyyətinə üz tutublar.

Sakinlərdən Aytən Mirəliyeva musavat.com-a bildirdi ki, MKİS-dən və icradan sakinlərə bildirilib ki, söküntü işi ilə bağlı narazılığı yalnız baş nazirin birinci müavini Abid Şərifova ünvanlamalıdırlar. Sakinlər isə A.Şərifovu görə bilmir.

Yalnız A.Şərifov fevralın 9-da gecə saatlarında əraziyə gələrək binalara baxış keçirib və sonra da gedib.

**Binaların A.Şərifova məxsus “Kristal” MMC tərəfindən söküldyünü iddia edən sakinlər qarşılaşdıqları problemin həll edilməsi üçün prezident İlham Əliyevə müraciət ediblər. Məktub Binada yaşayan 116 qaçqın və məcburi köçkün və 18 yerli ailə tərəfindən prezidentə ünvanlanıb.**

❑ **İlkin MURADOV**

# Məleykə Abbaszadə korrupsiyada ittiham olunan işçisindən danışdı

## “Elnur Nağızadə ilə bağlı sənədləri Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya göndərmişik”

**“Mən Elnur Nağızadənin fəaliyyətinə münasibətimi hələ ötən ilin noyabrında bildirmişəm və onu işdən azad etmişəm”. Bu sözləri fevralın 19-da Şamaxı rayonunda vətəndaşları qəbul edən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə APA-ya açıqlamasında deyib.**



Məleykə Abbaszadə

M.Abbaszadə bildirib ki, Elnur Nağızadə əmək məzuniyyətindən qayıtdıqdan sonra işdən çıxarılıb: “Bu ilin yanvarında isə iki nəfər onunla bağlı Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına müraciət edib. Biz xidməti araşdırma aparmışdıq. Həmin şikayətlərin TQDK-nın fəaliyyətinə heç bir aidiyyəti yoxdur”.

M.Abbaszadə bildirib ki, E.Nağızadə ilə bağlı sənədlər Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasına göndərilib: “Onunla bağlı bütün sənədləri Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya göndərmişik. Biz TQDK olaraq maraqlıyıq ki, onun qanuni və ya qeyri-qanuni fəaliyyəti ilə bağlı məsələlər araşdırılsın. Lakin Elnur Nağızadənin fəaliyyəti TQDK-nın işinə, komissiyanın daxilindəki proseslərə heç bir təsir göstərməyib. Bilirsiniz ki, o yalnız komissiyanın mətbuat katibi olub”.

Qeyd edək ki, bir neçə gün öncə yayılan məlumata görə, Bakı şəhər sakinləri Vüsal İbrahimov və Zaur Əsgərov hüquq-mühafizə orqanlarına verdikləri şikayət ərizələrində 2015-ci ilin avqust ayında Elnur Nağızadəyə işə düzəlmək məqsədilə 150 min ABŞ dolları verdiklərini bildiriblər. Onlar işlə təmin olunmadıqlarını və pullarını geri ala bilmədiklərini vurğulayıblar. Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

E.Nağızadə isə hazırda xaricdə olduğunu deyərək, bütün ittihamları rədd edib.

**Qeyd edək ki, Elnur Nağızadə 2005-ci ildən TQDK-da çalışıb.**

# Banklar niyə birləşmir - səbəblər...

## Ekspertlər bildirirlər ki, birləşmə məsələsi vaxt udmağa hesablanmış addımdır, real istək deyil...

**Bağlanma təhlükəsi qarşısında qalan banklar bundan qaçmaq üçün birləşmə qərarı versələr də, heç bir nəticəsi yoxdur. Bir neçə bank birləşmə məqsədilə niyyət protokolu imzalasa da, qısa müddət sonra şərtlərlə razılaşmayıblar.**




Son olaraq “Günay Bank” iki bankla - “Atrabank” və “Qafqaz İnkişaf Bankı” ilə birləşmək niyyəti barədə protokol imzalayıb. **“Günay Bank”ın İdarə Heyətinin sədri Emin Ağayev** bildirib ki, proses davam edir: “Biz artıq protokollar imzalamışıq, onları müvafiq strukturlara təqdim etmişik. Bu olduqca çətin və uzun prosedir. Bildiyiniz kimi, Mərkəzi Bank ”Atrabank" və “Qafqaz İnkişaf Bankı”ın lisenziyalarını geri çağırıb, bu isə prosesi yubandırır". E.Ağayev qeyd edib ki, banklar birləşmək barədə razılığa gəlməsələr, “Günay Bank” konsolidasiya üçün alternativ variantları nəzərdən keçirəcək: “Bildiyiniz kimi, daha əvvəl digər banklarla birləşmə məsələsini müzakirə etmişik, indi isə ”Atrabank" və “Qafqaz İnkişaf Bankı” ilə müzakirə edirik. Əgər alınmasa, digər banklarla razılaşacağıq. Bəyan etmək istəyirəm ki, “Günay Bank” birmənalı olaraq Azərbaycanın bank bazarında qalacaq".

**“Dəmirbank” rəhbərliyi isə “Parabank”la konsolidasiya haqqında yayılan xəbərləri təkzib edib. Bildirilib ki, “Dəmirbank” adıçəkilən bankla birləşmək haqda danışıq aparmayıb:** “Son zamanlar mətbuatda ”Dəmirbank"ın hər hansı bir bankla birləşməsinə dair məlumatlar yayılıb. Şəffaflıq ənənələrinə sadiq qalaraq, “Dəmirbank” hər zaman strateji qərarlarını müştərilərə və mətbuata açıqlayır. “Dəmirbank”la “AG-Bank” arasında ilkin niyyət protokolu imzalansa da, fevralın 11-də nəzərdə tutulmuş konsolidasiya prosesi ləğv edilib. Sözügedən konsolidasiya prosesi üzrə müzakirələr dayandırıldıqdan sonra “Dəmirbank” “ParaBank”la birləşmək haqda heç bir danışıqlara başlamayıb. Hər hansı bir bankla birləşmə haqqında müzakirələr başladığı halda, ictimaiyyətə, tərəfdaşlara və mətbuata bunun haqqında məlumat veriləcək".

**Aprelin 5-də isə “AG-Bank” ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcək.** Yığıncaqda Bankın nizamnamə kapitalının 100 milyon manat artırılması, İdarə Heyətinin 2015-ci il üzrə hesabatı, Audit Komitəsinin hesabatı, Bankın maliyyə nəticələrinin təsdiq edilməsi, Müşahidə Şurasının və Audit Komitəsinin tərkiblərinin təsdiqlənməsi məsələləri müzakirə olunacaq. Ekspertlərin sözlərinə görə, hazırkı durumda heç bir bank bu məsuliyyətli və cəsarətli addımı atmağa cəhd belə etməyib. “Bankların maliyyələşməsinin 4 əsas mənbəyi var: səhmdarların nizamnamə kapitalına qoyduğu vəsait, əmanətlər, xarici kreditlər və Mərkəzi Bankın kreditləri. Mərkəzi Bank kredit vermir. Xaricdən kredit almaq çətinləşib. Əmanətlər çıxarılır. Buna baxmayaraq, bank sahibləri yenə də gözlərini əmanətlərə dikib. Öz pullarını banka etibar etmirlər, amma əhalini əmanət qoymağa şirnikləndirirlər. Normal banka ilk növbədə onun öz səhmdarları etibar etməli, ora pul qoymalıdır. Həmin pul hesabına o cümlədən bankın zərərləri qarşılanmalı, ümidsiz kreditlər silinməlidir. Həmçinin, əhalinin kreditləri üzrə ciddi güzəştlər edilməlidir. Bank sisteminə etimadın bərpa edilməsinin yeganə yolu budur. Ümid edirəm ki, ”AGBank"ın bu addımı uğurlu və digər banklara örnək olacaq,- deyə ekspert Əkrəm Həsənov vurğulayıb.

Ekspertlərin sözlərinə görə, banklar birləşmə şüarı adı altında əmanətlərin qaytarılmasını dayandıra bilərlər. Bu isə qanunsuzdur. **Ekspert Fikrət Yusifov** isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, bankların birləşə bilməməsinin bir neçə deyil, bir səbəbi var: “Qısa və konkret, onlar sadəcə olaraq birləşmədən sonra yeni yaranacaq maraqları öz aralarında bölüşdürə bilmirlər. Buraya pay bölgüsündən tutmuş vəzifə bölgüsünə qədər olan bütün məqamlar daxildir. Əgər bu gün dünyada çox məhşur olan iri kompaniyalar zəruri hallarda birləşə bilirlərsə, bizdə nizamnamə kapitalı yalnız kağız üzərində 50 milyon manat olan bəzi banklarımızın birləşə bilməməsinin heç bir izahı yoxdur. Yəqin bu, daha çox milli psixologiya ilə bağlı bir məqamdır ki, biz bunun həqiqətən də belə olduğunu tam anlayıb etiraf etməkdə çətinlik çəkirik”.

**Ekspert Samir Əliyev** isə qeyd edib ki, bankların birləşməsi təşəbbüsləri hələki vaxt udmağa hesablanmış addıma oxşayır: “Ona görə də birləşmə ilə bağlı bağlanmış niyyət protokollarının tez-tez pozulması və ya birləşəcək bankların adlarının dəyişməsinə tez-tez rast gəlməli olacağıq. Bankların birləşməsi heç də problemin tam aradan qalxması demək deyil. Bunun üçün Mərkəzi Bank həmin banklara dəstək verməlidir. Əks halda, həmin bankların problemləri həll olunmamış qalacaq”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016



# Pinəçi məktəbi

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanda jurnalistikanın necə məhv edilməsi təkcə siyasi şərhlərin, araşdırmaların yoxa çıxmasından bilinmir, eyni zamanda kriminal xəbərlərin yazılışında görünür. Misal üçün, 2008-ci ildə o vaxtkı Dəvəçi, indiki Şabran rayonu ərazisində 2 azyaşlı bacı itkin düşmüşdü. Sonra onlardan birinin meyiti kanaldan tapıldı, biri isə yanılmıramsa ümumiyyətlə tapılmadı. Cinayəti törətməkdə suçlanan 3 nəfər "kişi" yaxalandı. Biri ömürlük cəza aldı. O vaxt bu hadisə haqda mətbuatda nə qədər yazılar, araşdırma və reportajlar gedirdi. İndi isə bənzər hadisələrdən üç cümləlik xəbərlər yazılır, onda da baxırsan qeyri-peşəkarlıq gözə girir.**

Elə son günlər Bakı rayonlarından birində 2 məktəbli itmişdi, şükür olsun, salamat tapıldılar. Ancaq media məsələyə necə münasibət bildirdi? Təsəvvür edin, hətta bir ağıldankəm jurnalist belə xəbər yazmışdı: "İtkin düşən uşaqların hər ikisinin anası rus, ataları isə azərbaycanlıdır". Sanki o rus qadınlar azərbaycanlı deyil. Üstəlik, burda milliyyəti qabartmağın mənası nədir? Bəlkə demək istəyir bunları anaları rus olduğu üçün oğurlayıblar? Yaxud, işarə edir ki, anası "azərbaycanlı" uşaqlar itkin düşmürlər, görürsən, rusdurlar deyə uşağı yiyəsiz buraxıblar, vay-vay...

Mənim yadıma gəlir, hələ 15 il qabaq bizim media orqanları bənzər qüsurları müzakirə edərdilər, hətta rəhmətlik "Press klub"da bir diskussiyada görkəmli vəkil İsaxan Aşurov jurnalistlərə irad tutmuşdu ki, kriminaldan yazanda milliyyəti, etnosu qabartmağın mənası yoxdur, axmaq hərəkətdir. O vaxt hansısa qəzetdə "Ləzgi arvadını bıçaqladı" başlıqlı yazı getmişdi. Deməli, problem yerində qalır, araba palçığa daha çox batmışdır. İndi "Qadın sürücü maşını aşırdı", "Xristian kişi uşağı boğdu" tipli başlıqlara da rast gəlmək olur.

Söz düşmüşkən, bir hadisəyə də münasibət bildirim. Keçən həftə Bakıda iki nəfər onlara borcu olan adamı tutub döymüşdülər, 10 min manatı alıb getmişdilər. Polis cinayət işi açdı. Hansı maddə ilə? Bax, mənim diqqətimi elə bu çəkmişdi: borcunu zorla alan şəxslərə qarşı Cinayət Məcəlləsinin 322-ci maddəsi ilə iş açıldı. "Özbaşınalıq" adlanır həmin maddə! İndi maraqlıdır, görəsən banklar qanunsuz olaraq dollarla kredit verəndə, indi isə zorla vətəndaşı evindən atıb əmlakı müsadirə edəndə, avtomobili əlindən alanda niyə özbaşınalıq maddəsi tətbiq olunmur? Özbaşınalığı dövlət orqanları edəndə yaxşıdır, vətəndaş edəndə pis?

Başqa bir örnək. Təzəlikcə Bakıda bir cavan oğlan çəkiclə yol polisi maşınına hücum eləmişdi. Hadisənin videosu var. Dəyən zərər də təxminən görünürdü. Ancaq polisin açıqlamasında avtomobilə dəyən... 30 min manatlıq zərərdən danışıldı! Elə bil bizim yol polisi Dubay polisi kimi "Lamborcini" sürürmüş. Axı həmin "BMV" markalı avtomobillərin Bakı yol polisinə alınması vaxtından bərini (5-6 ildir) nəzərə alsaq hazırda eyni model maşın bazarda 15-20 min manatdır. Necə oldu ki, bunun bir neçə yerinin əzilməsi, sınması 30 minə çatdı? Hələ maşını əzən şəxsin üstündən dərhal "narkotik də tapılması" kimi bəsit adətin təkrarını demirəm. Nəyə gərəkdir ki, belə üsullar? Haçan bu ərazidə beş-üç məmur, dövlət qulluqçusu qanunlara hörmətlə yanaşacaq, vətəndaş da onlardan örnək götürəcək?

Bilirəm ki, sözlərimin mənası yoxdur, boşboğazlıq edirəm. O üzdən, bir bekar söhbət də eləyim, yazı bitsin.

Yevlaxın Yuxarı Qarxun kənd orta məktəbi haqda internetdə süjet vardı. Başlığı təxminən "Qeyri-adi məktəb" kimi bir zad idi. Ürəyim açıldı, dedim görən orda nə olub, bəlkə şagirdlər dünya bilik olimpiadasından bir vedrə medalla qayıdıblar. Açıb xəbərə, ordakı videoya baxıram: sən demə, məktəb palçıq olmasın deyə direktor təzə qayda qoyub ki, uşaqlar dərsə iki ayaqqabı ilə gəlsinlər. Girişdə soyunub dəyişirlər. Görün indi kəndin yolları necə bataqlıqdır.

Məktəbə kitab-dəftərdən əlavə ayaqqabı daşıyan uşaqların gələcəkdə istedadlı pinəçi olması da mümkündür, gəlin müsbət baxaq. Neft mühəndisi peşəsi indi kimə lazımdır, ayaqqabı yamayana daha böyük ehtiyac var.

## Ankara-Bakı müttəfiqliyinə qarşı terror hədəsi



# Rusiya Ermənistana verəcəyi ölümcül silahların siyahısını açıqladı - Azərbaycana mesaj

## Rəsmi Bakının ölkənin İslam koalisiyasına qoşula biləcəyi bəyanatına Şimaldan reaksiya gecikmədi; Kreml və onun "danışan dil"lərindən sayılan Jirinovski "erməni maşası"nı yada saldılar; şantaj mesajlarının arxasındakı hədəf...

**Azərbaycanın İslam hərbi koalisiyasına qoşula biləcəyi haqda bəyanatına Rusiyadan reaksiya, gözlənildiyi kimi, çox gecikmədi. Özü də bu reaksiya birdən-birə üç fərqli formada və üç ünvandan gəldi və onların heç biri Bakı üçün pozitiv hesab oluna bilməz.**

Yada salaq ki, xarici işlər naziri Elmar Məmmədyarov məlum açıqlamanı Bakıda, öz türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra, eyni zamanda Ankaradakı qanlı terror aktları fonunda səsləndirib. Azərbaycan XİN başçısı deyib ki, "Terrorla mübarizə çox mühümdür və hazırda Azərbaycan islam antiterror koalisiyasında iştirakı məsələsinə baxır. Lakin hələlik bununla bağlı qərar verilməyib". Bu da o anlama gəlir ki, kritik məqamda Bakı Moskva və Tehranın deyil, hər halda Ankaranın (Qərbin) yanında yer almağı götür-qoy edir.

Elə həmin gün Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova koalisiyaya qoşulub-qoşulmamaq məsələsinin "müstəqil dövlət kimi Azərbaycanın suveren hüququ olduğunu" bəyan etdi ki, bu da mövzunun Rusiya üçün kifayət qədər həssaslığına dəlalət edir. Şübhə yox ki, Məmmədyarovun açıqlamasının Türkiyə xarici işlər naziri ilə görüşdə bəyan edilməsi də Kremlin nəzər-diqqətindən yayınmayıb.

Bu xüsusda M.Zaxarovanın açıqlaması əslində neytral yanaşmadan daha çox, diplomatik bir gedişdir, çünki həqiqətən Bakı yeni quruma qoşulmaq qərarı verərsə, ona Kremlin necə yanaşacağı xanım Zaxarovanın açıqlamadan görünmür. Hərçənd, Rusiyadan gələn ikinci reaksiyadan bunu təsəvvür etmək çətin deyil.

***

Məsələ ondadır ki, azərbaycanlı nazirin bəyanatının ertəsi gün Rusiya mediası işğalçı Ermənistana veriləcək yeni ölümsaçan silahların siyahısını açıqlayıb. Bu silahlar Moskva ilə İrəvan arasında ikinciyə 200 milyon dollarlıq kredit ayrılmasına dair imzalanmış saziş çərçivəsində ötürüləcək. Halbuki, dünənədək Rusiyanın ağır maliyyə durumu səbəbindən bu krediti ayırmaq imkanında olmadığı haqda informasiyalar yayılmaqda idi.

Göründüyü kimi, Moskva hər halda öz forpostunu unutmayıb. Bildirilir ki, kredit ilk ödəniş 2018-ci ilin əvvəlinə qədər ödənilməklə 10 il müddətinə verilib. Həmin vəsait Rusiya istehsallı müasir hərbi texnikanın və silahların alınmasının maliyyələşməsi üçündür.

Sənədə edilmiş əlavəyə görə, Ermənistan Rusiyadan "Smerç" reaktiv yaylım atəşi sistemləri və onun sursatlarını, "İgla-S" zenit-raket sistemləri, yerüstü radiotexniki kəşfiyyat kompleksi "Avtobaza-M", "TOS-1A" ağır odatanları, "9M113M" idarəolunan raketləri, "RPG-26" qumbaraatanları, Draqunov snayper tüfəngləri, "Tiqr" zirehli avtomobilləri, mühəndis və rabitə vasitələri alacaq.

Moskva sözsüz ki, bu qərarını Ermənistanla hərbi-strateji müttəfiq olması və Azərbaycanla Ermənistan arasında hərbi balansı saxlamaq niyyəti ilə izah edir. Ancaq siyahının məhz indi üzə çıxarılması nəzərdən yayına bilməz və əlbəttə ki, ən əvvəl Ankara ilə yaxınlaşmaq meyli göstərən Bakıya ikiqat mesaj xarakteri daşıyır.

***

Bu yerdə bir daha xatırladaq ki, terror əleyhinə islam ölkələrindən ibarət hərbi koalisiyanın yaradılması təşəbbüsü ilə Səudiyyə Ərəbistanı çıxış edib. Ər-Riyad quruma qoşulmaq üçün ötən ilin sonunda Azərbaycana da rəsmi təklif göndərib. Azərbaycanın iki ən yaxın və strateji müttəfiqinin - Türkiyə və nüvə dövləti Pakistanın, yer aldığı 37 ölkədən ibarət koalisiya qüvvələri hazırda Səudiyyə Ərəbistanında təlimlər keçir. Müşahidəçilərə görə isə koalisiya əslində Suriyada meydan sulayan İran və Rusiyaya qarşıdır. Təsadüfi deyil ki, Tehran və Moskva dərhal bu birliyə qarşı çıxıb.

***

Maraqlıdır ki, bu arada Kremlin "danışan dil"lərindən olan, ötən il Bakıda təmtəraqla qəbul olunub yola salınan kloun-siyasətçi Vladimir Jirinovski də məhz dünən Türkiyə və Azərbaycanı hədələyən, özü də ermənilərlə hədələyən açıqlama verib. Rusiya Liberal-Demokrat Partiyasının sədri bildirib ki, Türkiyə Suriyaya ordu yeridəcəyi halda türk şəhərlərində terror aktları törədiləcək və həmin aktları kürd və erməni yaraqlıları təşkil edəcəklər.

"Bu vaxt bütün Türkiyədə terror aktları başlayacaq. Hökumət binaları, hərbi düşərgələr yanacaq, hər şey havaya uçacaq. Bəs bunu kim elədi? Bilmirik. Bunu ola bilsin ki, kürd döyüşçüləri, yaxud da erməni yaraqlıları ediblər. Yunanlar, bolqarlar, suriyalılar, ərəblər... Onlar orada milyonlarladır və biz, əlbəttə, onların partlayıcı maddəni haradan aldıqlarını bilmirik", - "Rossiya1" telekanalında çıxış edən Jirinovski belə deyib.

**Jirinovski bu xüsusda Ankaradakı son terror aktlarını "məşq" adlandırıb:** "Dünən məşq idi, sabah isə bütün Türkiyə yanacaq" - deyə, o, Türkiyəni həm xəbərdar, həm də şantaj edib.

***

Rusiya Dövlət Dumasının sədr müavini olan bir şəxsin - Jirinovskinin şəkk-şübhəsiz, həm də Azərbaycana ünvanlanan bu terror hədələrinə (erməni terrorçuları çoxdan ərazilərimizdə yuva salıb) rəsmi Moskvadan hələ ki heç bir reaksiya yoxdur. Yəqin ki, olmayacaq da. Bəlli məsələdir nəyə görə...

❑ **Siyasət şöbəsi**

## Tiflisdə Azərbaycan, Türkiyə və Gürcüstan XİN başçılarının görüşü oldu

### Xarici işlər nazirləri birgə bəyannamə imzaladılar



**Tiflisdə Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilib.**

APA xəbər verir ki, görüşdə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu və Gürcüstan xarici işlər naziri Mixail Canelidze iştirak ediblər.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev APA-ya açıqlamasında görüşdə hər üç ölkənin iştirak etdiyi regional layihələrin müzakirə olunacağını, xüsusilə Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin (BTQ) inkişafı, TAP və TANAP layihələrinin əsas müzakirə obyekti olduğunu bildirib.

Görüşün nəticəsi olaraq bəyannamə imzalanıb.

APA-nın məlumatına görə, sənədə Gürcüstanın xarici işlər naziri Mixail Canalidze, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imza atıb.

Bəyannamədə üç ölkə arasında regional əməkdaşlığa dair layihələrin əhəmiyyəti, o cümlədən Azərbaycan və Gürcüstanı narahat edən münaqişələrə münasibət əksini tapıb. Sənəddə Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət və dəstək bir daha vurğulanıb: "Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf ərazilərindəki münaqişənin, Gürcüstanın Abxaziya və Tsxinvali/Cənubi Osetiya regionundakı münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, eləcə də BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamə və qərarlarına müvafiq olaraq tez bir müddətdə sülh yolu ilə nizamlanması əlahiddə vacibdir".

Azərbaycan XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bu barədə Gürcüstan, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin Tiflis görüşünün sonunda qəbul olunan yekun Bəyannamədə deyilir. Sənəddə bildirilir ki, regionda mövcud olan münaqişələr sülh, sabitlik və iqtisadi inkişafa mane olur və beynəlxalq hüququn prinsiplərinə müvafiq olaraq, dövlətlərin suverenliyi, ərazi bütövlüyü prinsipləri əsasında dinc yolla həll olunmalıdır.

Qeyd edək ki, bu, üç ölkə nazirlərinin bu formatda V görüşüdür.

**Növbəti görüşün Azərbaycanda keçirilməsi planlaşdırılıb.**

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016



# Putin ram edilməzdirmi...

## Siyasi ekspertdən Kreml sahibinin itirdikləri və nədən güclü görünməsi haqda maraqlı şərh

**Qərbin Vladimir Putin hakimiyyətini zəiflətmək cəhdləri onun ram edilməsinə gətirib çıxarmır. Krımın işğalından sonra Avropa Birliyi, ABŞ saysız-hesabsız sanksiyalar da yetərli effekt vermir. Rusiya sıxışdırıldıqca geri çəkilmək əvəzinə hücuma keçir. Faktiki olaraq Putin artıq dünyada ramedilməz imicinə sahiblənib.**

**Qərb, dünya Putini niyə ram edə bilmir? Sanksiyalar, hədələr nədən onu yolundan döndərə bilmir? Kreml sahibinin gücü nədədir?**

**Politoloq Şahin Cəfərli** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, əslində geniş rakursdan baxdıqda Rusiyanın itkilərinin qazancından dəfələrlə çox olduğunu görərik. Putin sadəcə olaraq, bu itkiləri kompensasiya etməyə, itirdiklərinin heç olmasa bir hissəsini geri qaytarmağa çalışır. Yaxın tarixə qısa ekskurs edərək deməliyik ki, SSRİ-nin dağılması və sosialist blokunun çöküşü, Putinin sözləri ilə desək, Rusiya üçün onun imperialist maraqları baxımından böyük geosiyasi fəlakətdir: “Bunun nəticəsində Moskva nəzarət etdiyi nəhəng əraziləri itirdi, geostrateji məkanı olduqca daraldı, Qərbi və Mərkəzi Avropa ilə birbaşa quru əlaqəsi əldən çıxdı, Baltik və Qara dənizlərə çıxışı məhdudlaşdı, enerji ehtiyatlarının nəqli üçün başqalarına tranzit haqqı ödəmə məcburiyyəti ilə qarşı-qarşıya qaldı, dünyada iki qütbdən birini təşkil edən mərkəz yox oldu və onun yerində təkqütblü dünya düzəni yarandı. NATO Şərqə doğru genişləndi, Rusiya Şərqi Avropadan tamamilə uzaqlaşdırıldı və öz içərilərinə doğru sıxışdırıldı.

Putin hakimiyyətə gəldikdən sonra əvvəlcə daxildə dövlətin dayaqlarını möhkəmləndirərək, müəyyən iqtisadi inkişafa nail oldu. Sonra Qərbin bu siyasətinə müqavimət göstərmək yolunu seçdi və ekspansiya siyasəti həyata keçirməyə başladı. Hazırkı proses və Rusiyanın aktivliyi bununla əlaqədardır. Rusiya itirdiklərinin müəyyən hissəsini geri qaytarmaq üçün hücumdadır və Krımın ilhaqını, Donbasa hərbi müdaxiləni, Suriya məsələsində təşəbbüsü ələ keçirməsini bu istiqamətdə onun uğurları kimi qiymətləndirmək olar".

**Ş.Cəfərlinin sözlərinə görə, bütün bunlara baxmayaraq, qarşı tərəfin də buna qarşı cavabları var. Əvvəla, postsovet məkanının ən önəmli dövləti olan Ukrayna Krımı itirməsinə və şərqdə separatçılıqla üzləşməsinə baxmayaraq, Rusiyanın nüfuz dairəsindən çıxarılıb, artıq geri dönüş mümkün deyil. Böyük ehtimalla Ukrayna gələcəkdə Avropa Birliyi və NATO-ya da qəbul olunacaq. Bu, müxtəlif adlar altında SSRİ-ni bərpa etmək istəyən Putinin imperialist planlarına sarsıdıcı zərbədir, çünki Avropaya birbaşa çıxışı olan Ukraynasız hansısa effektiv birlik qurmaq mümkün deyil:** “Putinin beynəlxalq hüquq normalarını heçə sayaraq Avropada II Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik sistemini dağıtmağa çalışması da cavabsız qalmır və ona qarşı sanksiyalar tətbiq olunur. Eyni zamanda, Putinin addımları NATO-ya bir növ, ikinci nəfəs verib və bu baxımdan hətta amerikalı strateqləri sevindirib. Çünki SSRİ-nin və onun patronajlığındakı Varşava Paktının çökməsindən sonra Avropada NATO-nun mövcudluğu sorğulanmağa başlamışdı. NATO-nun kimə qarşı mübarizə apardığı, düşmənin kim olduğu sualları açıq qalırdı. NATO-nu özünün Avropadakı maraqları baxımından mühüm alət hesab edən amerikalılar ittifaqı qorumağın zəruriliyini bir müddət beynəlxalq terrorizm təhdidi ilə əsaslandırdılar, lakin asimmetrik təhdidə qarşı böyük hərbi blok saxlamağın zərurət olması o qədər də inandırıcı səslənmirdi. Daha konkret və qorxulu düşmənə ehtiyac var idi və Putinin 2008-ci ildə Gürcüstana, 2014-cü ildə isə Ukraynaya hərbi müdaxilələri bu baxımdan yaxşı fürsət yaratdı. Amerikalı strateqlər ehtiyac duyduqları düşməni tapdılar və rusca "sderjivaniye" deyilən yeni bir siyasətin həyata keçirilməsinə start verildi. Bir tərəfdən Rusiyanı sanksiyalar yolu ilə zəiflətmək üçün ciddi və haqlı əsaslar yarandı, digər tərəfdən isə NATO-nu nəinki qoruyub saxlamaq, hətta onun yeni bir inkişaf mərhələsinə çıxararaq alyansın Rusiya sərhədlərində infrastrukturunu gücləndirmək zərurəti ortaya çıxdı. Hazırda biz bu prosesi izləyirik. Baltikyanı ölkələrdə, eləcə də Polşa, Rumıniya və Bolqarıstanda NATO-nun komanda məntəqələri yaradılıb, alyansın çevik reaksiya qüvvələrinin imkanları həm kəmiyyət, həm də keyfiyyətcə artırılır, Rusiya ilə həmsərhəd olan Norveçdə, həmçinin yaxınlıqda yerləşən İslandiyada ABŞ əlavə hərbi qüvvələr yerləşdirir, Finlandiya, İsveç kimi ölkələr də NATO-ya üzv olmağı nəzərdən keçirir".

**Ekspert vurğuladı ki, bütün bunları nəzərə aldıqda, Putinin aqressiv addımlarının və ram edilməz imicinin Rusiya üçün geosiyasi mənada faydalarının qısamüddətli olduğunu söyləyə bilərik:** “Putini güclü və təşəbbüskar göstərən səbəblərdən biri də budur ki, o, Rusiyada hakimi-mütləqdir, qərarları hər hansı ictimai müzakirə keçirmədən təkbaşına qəbul edərək dərhal icraya yönəldir. Qərb dövlətləri isə demokratik sistemlə idarə olunduğundan, orada qərarların qəbulu prosesi uzanır, bəzən hakimiyyətdəki qüvvə parlamentdə öz mövqeyini qəbul etdirə bilmir, yaxud hər hansı ciddi qərarın qəbulu üçün ictimaiyyət arasında iş aparmaq, ictimai dəstək qazanmaq lazım gəlir. Putinin bəzi hallarda Qərbdən bir addım öndə görünməsi bundan qaynaqlanır. Eyni zamanda, Qərbin strategiyaları uzunmüddətli olduğundan onların həyata keçirilməsi çox yavaş gedir və nəzərə çarpmır. Nəticədə belə təsəvvür yaranır ki, bütün məsələlərdə təşəbbüs Rusiyanın, Putinin əlindədir. Əslində isə belə deyil”.

❑ **Etibar SEYİDAĞA**

# Çavuşoğlu: “Terrora baxmayaraq, Türkiyə xarici siyasətini dəyişməyəcək”



**“Terrorçuluğa qarşı əməkdaşlığımız daha da güclənib”. APA-nın məlumatına görə, bunu Tiflisdə Gürcüstan, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşündə çıxış edən türkiyəli nazir Mövlud Çavuşoğlu deyib. O, Azərbaycan və Gürcüstan xarici işlər nazirlərinə Ankaradakı terrorla bağlı başsağlığı diləkləri və diqqətlərinə görə təşəkkür edib.**

M.Çavuşoğlu Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını istədiklərini bildirib. O, terror aktlarına baxmayaraq, Ankaranın öz xarici siyasətini dəyişməyəcəyini vurğulayıb.

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov** qeyd edib ki, terrorizmə ən yaxşı cavab həmrəylik və qarşılıqlı dəstəkdir.

**Gürcüstanın xarici işlər naziri Mixail Canelidze isə terrorçuluqla mübarizədə əllərindən gələni edəcəklərini söyləyib**: “Biz əlimizdən gələn yardımı göstərməyə hazırıq. Azərbaycan və Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşıdır. Bu gün biz ikitərəfli və üçtərəfli görüşlər keçirdik və strateji tərəfdaş olduğumuzu təsdiqlədik”.

**M.Canelidze Cənub Dəhlizinin böyük önəm daşıdığını qeyd edib:** “Biz görüşlərdə əməkdaşlıq haqqında fikirlərimizi səsləndirdik. Potensial imkanlarımızdan səmərəli istifadə edəcəyik. Ümid edirik ki, Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin Türkiyə tərəfində də tikinti işləri tezliklə başa çatacaq”.

# Türkiyənin ağır daşı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Yeganə təbii müttəfiqimiz, canbir, qanbir Türkiyə yenə azğın terror qurumları və onların havadarlarının əsas hədəfindədir. Zatən, onlar Türkiyəni heç zaman “unutmayıb” da. Sadəcə, hücumların şiddətli-zəif dönəmləri olub.**

Xarici ölkələrdəki türk diplomatları və ailələrinə qarşı ötən əsrin 70-80-cı illərində erməni terror təşkilatlarının, əsasən də ASALA-nın törətdiyi xain aktları yada salmaq kifayətdir. Qardaş ölkə hazırda növbəti belə şiddət dönəmini yaşayır.

Türkiyə hədəfdirsə, sözsüz ki, Azərbaycan da hədəfdədir. Çünki qardaş ölkəyə atılan daş, ona dəyən zərbə həm də qardaş Azərbaycana tuşlanmış daş, Azərbaycana dəyən zərbədir. Türkiyənin verdiyi şəhid Azərbaycanın da şəhididir, Azərbaycan uğrunda da həyatını qurban verən şəhiddir.

Bu xüsusda Rusiyanın kloun-siyasətçisi və Kremlin “danışan dilləri”ndən biri Vladimir Jirinovskinin Türkiyəni terror aktları ilə hədələməsi elə Azərbaycanın hədələnməsi deməkdir.

Diqqət edin, bu, başıxarab türk düşməni Ankaradakı son qanlı, onlarla insanın ölümünə səbəb olan vandalist terror aktlarına acımaq əvəzinə, onları “məşq” adlandırır və ardınca Türkiyə dövlətinə qarşı terror aktlarının həm də ermənilər tərəfindən törədiləcəyinin anonsunu verir. Onun baş nazir Əhməd Davudoğlunun Kiyevdəki məlum bəyanatına reaksiyası da eyni qəbildən idi və hədə xarakteri daşıyırdı.

Adam həm də Rusiya Dövlət Dumasının vitse-spikeridir, yəni dövlət adamı sayılır, amma gəl ki, Türkiyəyə qarşı, dinc əhaliyə qarşı terrorçuluğu təqdir edir, hətta terrora çağırış edir.

“Türkiyə Suriyaya girsə, orada terror aktları başlayacaq. Hökumət binaları, hərbi düşərgələr yanacaq, hər şey havaya sovrulacaq. Bunu ola bilsin ki, kürd döyüşçüləri və yaxud erməni yaraqlıları edəcəklər. Yunanlar, bolqarlar, suriyalılar, ərəblər. Onlar orada milyonlarladır...” - deyir Jirinovski və əslində özü kimilərinin yadına “daş salmaqla” terrora çağırır.

Hərgah, insaf naminə qeyd eləməliyik ki, Rusiya həm Xarici İşlər Nazirliyi, həm də prezident Vladimir Putin səviyyəsində son terror hücumunu pisləyib. Rəsmi Ankara da bunu pozitiv qiymətləndirib. Lakin baş nazir Əhməd Davudoğlu əlavə edib ki, “bu - yetərli deyil, Rusiya terror birləşmələrinə dəstəyi dayandırmalıdır”.

Tam doğru. Bu gün qardaş ölkəyə ən böyük təhlükə və təhdid də şübhəsiz ki, “canlı bombalar” yox, onları hazırlayıb yönəldənlər, terroru sifariş edənlərdir, terrorçuluğun sponsorlarıdır. Bu sponsorlar sırasında təkcə Rusiya yer almayıb ki. Siyahıda rus və erməninin tarixi müttəfiqi olan İran, bəzi ərəb ölkələri və Türkiyənin çöküşünü istəyən başqa məkrli ünvanlar da var.

Türkiyənin bunca qarğa-quzğunun, terrorun hədəfində olmasının yek səbəbi isə onun regional supergüc olması, bölgədəki proseslərdə daima oynadığı vazkeşilməz və mərkəzi roldur. Obrazlı desək, daşının ağır olmasıdır.

Bu daş kimin başına düşsə orada da qalar. Odur ki, türk düşmənləri ortaq hərəkətə etmək və “hədəf vasitəni doğruldur” məntiqilə bütün antiinsani metodlardan yararlanmaq zorundadırlar...

***

Bu gün də Türkiyəyə qarşı kişi kimi və kişi mübarizəsi aparılmır. Zira, terror yalnız zəiflərin və namərdlərin istifadə elədiyi alçaq və xain mübarizə üsuludur.

Bu mübarizəyə qarşı müqavimətdə Azərbaycan heç vaxt olmadığı qədər qardaş ölkənin yanında yer almalı, öz potensialı hesabına, bütün üsullarla onun gücünə güc qatmalıdır - tərəddüd etmədən, erməni, rus, fars kartlarını nəzərə almadan.

Çünki Azərbaycan dövləti var olacaqsa, yalnız Türkiyə dövləti ilə birgə var olacaq, yaşayacaq! Allah eləməmiş, Türkiyə parçalanacaqsa, zəifləyəcəksə, olmayacaqsa, Azərbaycan da olmayacaq, Qarabağ da olmayacaq. Bunu hamılıqla birdəfəlik kəsdirməmiz  lazım.

**Varlıq qarantımız olan Türkiyəmizi Allah bəlalardan qorusun, düşmənlərini xar eləsin, İnşallah.**

# Azərbaycanı İslam koalisiyasına qoşulmaqdan çəkindirən səbəblər

**Azərbaycanın Səudiyyə Ərəbistanın terrorçuluğa, əsasən də İŞİD-ə qarşı mübarizə üçün İslam ölkələrindən ibarət yaratdığı İslam koalisiyasına üzv olub-olmaması məsələsi yenidən gündəmə gəlib. Qeyd edək ki, koalisiyada dünyadakı 57 müsəlman ölkəsindən 37-si iştirak edir. Yeni hərbi alyansın üzvləri bəyan ediblər ki, koalisiyanın lideri Səudiyyə Ərəbistanıdır və ər-Riyadda birgə operativ hərbi qərargah yaradılıb. Bu qərargah terrora qarşı birgə mübarizəni koordinasiya edəcək və dəstəkləyəcək.**

“İslam xalqlarını terror bəlasından” müdafiə etmək vəzifəsini qarşıya qoyan koalisiyadan Azərbaycana da dəvət gəlib. Mediada bu barədə yer alan xəbərlərə görə, Səudiyyə Ərəbistanının xarici işlər naziri Adel əl-Cubeyirlə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov arasında sözügedən mövzuda hələ ötən ilin dekabrında telefon danışığı olub. Səudiyyə naziri Azərbaycan tərəfinə dəvəti çatdırıb. Azərbaycan xarici işlər nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev də informasiya agentliklərinə açıqlamasında bildirib ki, nazirlərin telefon danışığında Azərbaycanın koalisiyaya qoşulması məsələsi müzakirə olunub. Artıq üzv ölkələrin hərbi qüvvələrindən ibarət İslam koalisiyasının böyük ordu kontingenti formalaşdırılır.

**İki gün öncə isə Rusiya Xarici İşlər Nazirinin mətbuat katibi Mariya Zaxarova keçirdiyi mətbuat konfransında bildirib ki, İslam koalisiyasına qoşulmaq haqqında qərar vermək Azərbaycanın suveren hüququdur:** “Bu, Azərbaycanın suveren hüququdur. O ki qaldı Rusiyanın yeni yaradılan koalisiyalara münasibətinə, deyə bilərəm ki, bu günə kimi ABŞ-ın rəhbərlik etdiyi koalisiya mövcud olub. Yeni koalisiyanın yaradılması hansı ehtiyacdan irəli gəlir, məlum deyil. Yeni koalisiyanın yaradılması proses xatirinə prosesdir”.

Zaxarovanın bu bəyanatı səsləndirdiyi gün Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Türkiyə xarici işlər naziri ilə Bakıda keçirdiyi mətbuat konfransında bildirib ki, terrorla mübarizə çox mühümdür və hazırda koalisiyasında iştirakı məsələsinə baxır. Lakin hələlik bununla bağlı qərar verilməyib.

*Bəs, Azərbaycanın İslam koalisiyasına indiyədək qoşulmaması nə ilə bağlıdır?*

**YAP-ın şöbə müdiri, deputat Aydın Mirzəzadə** “Yeni Müsavat”a bildirdi ki, İslam koalisiyası hələ tam formalaşmayıb. Azərbaycan buna görə hələ ki gözləyir. Əgər İslam koalisiyası hərbi bloka çevrilərsə və ya hərbi bloku mahiyyəti daşıyarsa, hüquqi cəhətdən Azərbaycan onun üzvü ola bilməz: “Çünki Azərbaycan bloklara qoşulmayanlar hərəkatının üzvüdür. Amma İslam koalisiyasının ayrı-ayrı layihələrində iştirakı mümkündür. Necə ki, Azərbaycan İraqda, Kosovoda, Əfqanıstanda sülhməramlı qüvvələrin tərkibində iştirak edib. Bu şəkildə ayrı-ayrı əməliyyatlarda və Azərbaycanın iştirakı tamamilə mümkün olan məsələdir. Yəni Azərbaycan İslam koalisiyası məsələsini diqqətdə saxlayır. Azərbaycanı özünə dost olan müsəlman ölkələrinin bu məsələdə təcrübəsindən öyrənir və hesab edirəm ki, əməkdaşlıq mümkündür. Ancaq təşkilati formada qoşulmaq isə hədəfdə deyil”.



**Aydın Mirzəzadə:** “Azərbaycan gələcəkdə bu koalisiyanın hansısa layihəsində iştirak etsə, heç vaxt digər ölkə ilə konfliktə qoşulmaq fikrində deyil”



**Elxan Şahinoğlu:** “Moskva Bakıya mesaj göndərir ki, koalisiyaya üzvlük məsələsində "min ölçün, bir biçin"

**“Azərbaycan İslam koalisiyasına təşkilatçı formasında rəsmi üzv olmasa da koalisiyanın ordusuna məsələn, bir hərbi bölük göndərə bilərmi” sualına A.Mirzəzadə belə cavab verdi:** “Bu, həmin qurumun üzvü olmaq demək olardı. Fərqi yoxdur ora sən böyük bir korpus, yoxsa kiçik bir bölük göndərəcəksən, göndərdin isə təşkilatçı üzv olursan. Hələ ki Azərbaycan İslam koalisiyasında nə təşkilati, nə də hərbi intizam formasında iştirak etmir. Amma öyrənilir və gələcəkdə onun müəyyən layihələrində iştirak edilməsi mümkün deyil”.

**“Azərbaycanın Rusiya və İranla münasibətlərinin korlanmasından çəkinərək Səudiyyə Ərəbistanının layihəsi olan İslam koalisiyasına qoşulmadığı barədə deyilənlər nə dərəcədə əsaslıdır” sualını isə deputat belə cavablandırdı:** “Bu iddiada əsas yoxdur. İslam koalisiyasının yaradılmasında hansısa konkret bir ölkə istiqamət hədəf göstərilmir. Söhbət terrora qarşı birgə mübarizədən gedir. Bu məsələnin bir tərəfi. Digər tərəfdən, Azərbaycan hələ ki həmin koalisiyaya qoşulmadığına görə, onun hər hansı bir bəyanatına və hərəkətinə məsuliyyət daşımır. Azərbaycan gələcəkdə bu koalisiyanın hansısa layihəsində iştirak etsə və bərabərhüquqlu üzvü olarsa, heç vaxt hansısa bir ölkənin digər ölkə ilə konfliktinə qoşulmaq fikrində deyil. Azərbaycanın Ermənistandan başqa bütün ölkələrlə xoş münasibəti var”.

**Politoloq Elxan Sahinoglu** isə Rusiyanın XİN sözçüsünün dili ilə Azərbaycana diplomatik formada mesaj göndərdiyini düşünür: “Daxili işlərə qarışmaq necə olur? Rusiya XİN sözçüsü Mariya Zaxarova mətbuat konfransında bir tərəfdən deyib ki, islam koalisiyasına üzv olub-olmamaq Azərbaycanın müstəsna hüququdur, yəni guya demək istəyib ki, rəsmi Bakının istənilən qərarına hörmətlə yanaşacaqlar. Ancaq Zaxarovun cümləsinin ikinci hissəsi də var. Orada deyilir ki, İslam koalisiyasının məramı və məqsədi bəlli deyil. Moskva Bakıya mesaj göndərir ki, "baxın ha! İslam koalisiyasına üzvlük məsələsində min ölçün bir biçin".

**Qeyd edək ki, dekabrın 15-də Səudiyyə Ərəbistanı terrorçuluğa qarşı mübarizə məqsədi ilə islam ölkələrindən ibarət koalisiya formalaşdırdığını bəyan edib. Səudiyyə Ərəbistanın dövlət xəbər agentliyində yer alan məlumata görə, koalisiyaya Yaxın Şərq və Fars körfəzi ölkələri, habelə Malayziya, Pakistan, Türkiyə və bir sıra Afrika ölkələri daxildir. İran isə koalisiyaya cəlb olunmayıb.**

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycan indiki neft qiyməti ilə nə qədər qazanır?

## İqtisadçı-ekspert: “Neft satışından əldə etdiyimiz gəlir kəskin şəkildə azalıb...”

**Dünya bazarında neftin qiyməti yenə dəyişib. Belə ki, Brent markalı neftin bir barelinin qiymətində 1,71% ucuzlaşma qeydə alınıb. Hazırda bu markalı neft 33,91 dollardan təklif edilir. WTI markalı neftin qiymətində də eniş var - WTI-nin bir barelinin qiyməti 30,41 dollarda qərarlaşıb. Neftin qiymətinin uzun müddətdir 33-35 dollar civarında qalxıb-enməsi isə insanlarda bir sualı yaradır. Bu qiymətlərlə Azərbaycan neftdən nə qədər qazanır? Neftin istehsalının və ixracının maya dəyərini və istehsalçı şirkətlərin gəlir payını da çıxsaq, ölkəmiz neftin indiki qiymətlə satışından nə həcmdə gəlir götürür?**

“Yeni Müsavat”ın bu suallarını **iqtisadçı-ekspert Vüqar Bayramov** cavablandırıb. O bildirib ki, bunu tam dəqiq yox, müəyyən kənarlaşmalarla hesablamaq mümkündür: “Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə 33,2 milyon ton neft ixrac edib. Bu da gündəlik ixracatın 650 min barel olması deməkdir. Əgər neftin bir barelinin qiymətini 33 dollardan hesablasaq, ölkənin gündəlik gəliri 1,45 milyon dollar, illik daxilolmalar isə 7,8 milyard dollara bərabər olur. Ancaq Azərbaycan neftinin maya dəyəri ilə bağlı fərqli yanaşmalar var. 2014-cü ilin dekabrında Dövlət Neft Fondunun vitse-prezidentləri keçirdikləri görüşdə bildirmişdilər ki, SOCAR-ın istehsal etdiyi neftin bir barelinin maya dəyəri 15 dollardır, ancaq bu yaxınlarda SOCAR məlumat yaydı ki, maya dəyəri 20 dollardır. Bu baxımdan neftin maya dəyəri ilə bağlı məlumatlar fərqlidir. ARDNŞ-in istehsal etdiyi neftin xərci nisbətən azdır. Məlumatlara görə, bu xərc təxminən 8 dollardır. Orta qiymət kimi bir barel neftin maya dəyərini 15 dollardan götürsək, bu o deməkdir ki, illik hasilat xərci 3,5 milyard dollardır.

Bu isə o deməkdir ki, hasilatın pay bölgüsünə uyğun olaraq illik 4,3 milyard dollar vəsait qalır".

Vüqar Bayramov onu da qeyd edib ki, bu hesablamada daha bir məqamda neftin ucuzlaşmasından sonra mənfəətin neft şirkətləri ilə dövlət arasında necə bölüşdürülməsidir: “Əvvəllər gəlirlərin 75 faizi Azərbaycana, 25 faizi isə şirkətlərə qalırdı. Əgər həmin proporsiyanı biz qəbul etsək, 75 faizlik proporsiya neftin dünya bazarında qiyməti 33 dollar, maya dəyəri isə 15 dollar olduğu halda Azərbaycana il ərzində 3,2 milyard dollar gəlir gətirir. Praktik olaraq 33 dollar, təxminən il ərzində 3,2 milyard dollar mənfəət deməkdir. Bu isə onu göstərir ki, əslində maya dəyərini və hasilatın pay bölgüsü üzrə mövcud proporsiyanı nəzərə alsaq, Azərbaycanın neft satışından əldə etdiyi gəlir kəskin şəkildə azalıb”.

**İqtisadçının hesablamalarına görə, bu durumun özünü Dövlət Neft Fondunun gəlirlərində də göstərir:** “DNF-in 2016-cı il üçün olan büdcəsində də azalmalar baş verdi. Üstəgəl, büdcədə neft 50 dollardan hesablanmışdı. Dövlət Neft Fondunun bu il üçün gəlirləri 6 milyard manatdan bir qədər artıq nəzərdə tutulması ondan xəbər verir ki, büdcənin neft gəlirlərində azalmalar olacaq. Bu özünü həm DNF-nin büdcəsində, həm də DNF-dən büdcəyə transferin həcmində göstərəcək. Bu baxımdan neftin 33 dollar civarında olması Azərbaycanın gəlirləri baxımından heç də cəlbedici deyil”.

❑ **Nərgiz LİFTİYEVA**



YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

**Son günlər Mərkəzi Bank dolları ucuzlaşdırır. Ekspertlər manatın dövriyyəsinin kəskin şəkildə azaldılmasını bu şəkildə izah edirlər. Bildirilir ki, Mərkəzi Bank monetar siyasəti sərtləşdirməklə psixoloji əməliyyat həyata keçirir. Simvolik olaraq, manatı gücləndirərək ölkədə dolların ucuzlaşması qənaəti yaratmağa çalışır. Ekspertlərin sözlərinə görə, dolların bu şəkildə "ucuzlaşdırılması" xeyirli əlamət deyil və manatın tezliklə ucuzlaşacağına işarədir.**

# Dolların "ucuzlaşması" xeyirli əlamətdir, yoxsa psixoloji test?

## Ekspertlərin fikrincə, Mərkəzi Bank artıq iqtisadi qaydaların əksinə mövqe sərgiləyir və bu da yaxşı əlamət deyil...

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, dolların ucuzlaşması qısamüddətli təsirdir: "Bu, ona görə baş verir ki, ölkədə milli valyutanın qıtlığı var. Manat çatmır. Buna görə də dollar almaq istəyən çoxdur. Sadəcə olaraq dollar almaq üçün milli valyuta gərək əldə olsun. O da yoxdur. Ona görə manat son günlər qalxıb. Amma biz şahidi olduq ki, Mərkəzi Bank artıq uçot dərəcəsini artırdı. Bu proses davam edəcək. Mərkəzi Bank bunu ona görə etdi ki, dövriyyəyə əlavə milli valyuta buraxılacaq. Yeni banklara kreditlər verəcək. Başqa yol da yoxdur. Çünki dövriyyəyə manat buraxılmasa, iqtisadiyyatımız fəaliyyət göstərə bilməyəcək. Buna görə də Mərkəzi Bank manat buraxmaq məcburiyyətindədir. Dövriyyəyə əlavə manat buraxılan kimi dolların yenidən artmasını görə bilərik. Əgər bu prosesər düzgün idarə olunmasa, məhz bu cür də olacaq. Dollar əhəmiyyətli dərəcədə artacaq. Hazırda milli valyutanın artması üçün heç bir faktor yoxdur. Neftin qiyməti artmır, hasilat artmır. Buna görə də ölkədə valyuta gəlirlərimiz azalır. Gəlir azaldığı bir şəraitdə manatın möhkəmlənməsi mümkün deyil. Ona görə mən düşünürəm ki, yazda yenidən manatın yenə devalvasiyasını görəcəyik".

**Ekspert Rəşad Həsənov** isə musavat.com-a bildirib ki, Mərkəzi Bank iqtisadi qaydaların əksinə mövqe sərgiləyir: "Hazırda görünən odur ki, Mərkəzi Bank sadəcə ictimai rəyə uyğun olaraq məzənnə siyasəti həyata keçirir. Belə ki, Mərkəzi Bankın artıq bazar iştirakçılığı kifayət qədər məhdudlaşdırılıb və hazırda yanvar və dekabr aylarında çox ciddi şəkildə bazara müdaxilə etmək məcburiyyətində qalıb. Xüsusilə devalvasiyadan sonra yaranmış situasiya, panika ciddi intervensiya xərcləri yaratmışdı. O baxımdan da hazırda bu prosesin uzun müddətliliyinin qarşısını almaq məqsədi ilə Mərkəzi Bank artıq prosesin əksinə olaraq, iqtisadi qaydaların əksinə mövqe sərgiləyir. Bu cür mövqe sərgiləməklə



əhalinin və biznesin əlində cəmlənmiş xarici valyutanın bazara axınını təmin etmək siyasəti həyata keçirməyə başlayıb. Heç bir əsas olmadan dolların məzənnəsini zaman-zaman kiçik faizlərlə aşağı salmağa başlayıb və hazırda bu prosesin davamını biz müşahidə edirik".

**Ekspertin sözlərinə görə, burada müəyyən xarici faktorlar da var:** "Bu faktorların əhəmiyyəti çox aşağıdır. Yanvar ayında FED-in uçot dərəcəsini artırmaq qərarı, eyni zamanda bundan sonrakı dövrdə uçot dərəcəsini artırmaq ehtimalının aşağı düşməsi beynəlxalq birjalarda dolların qısamüddətli dövr üçün məzənnəsinin ucuzlaşmasına gətirib çıxarıb. Nəzərə alsaq ki, Azərbaycanda manatın məzənnəsi bivalyuta səbəti əsasında dollar-avro münasibətləri fonunda formalaşır. Avroya nisbətdə dolların ucuzlaşması sonda Azərbaycanda da məzənnəyə müəyyən təsir göstərir. Amma prosesin hazırda süni əsaslarla, ictimai rəyə hesablanmasını göstərən arqumentlərdən biri də odur ki, baxmayaraq ki, Mərkəzi Bank hazırkı situasiyaya yenə də intervensiyaya gedir, bazarda iştirak edir. Bir neçə gün əvvəl Mərkəzi Bank bazara 32 milyona qədər dollar çıxarmaq məcburiyyətində qalıb. O deməkdir ki, manatın əslində məzənnəsinin Mərkəzi Bankın müəyyən etdiyi kurs olaraq möhkəmlənməsi iqtisadi əsaslardan deyil, ictimai əsaslardan və aparılan məzənnə siyasətindən irəli gələn bir rəqəmlərdir. O proses müəyyən müddət davam edəcək. Düşünürəm ki, arada hökumət müəyyən qədər manat qazanmaq istəyir. Böyük ehtimalla, yaxın dövrlərdə irihəcmli rəqəmlərlə borclanma prosesi həyata keçiriləcək. Ölkəyə hansısa formada xarici valyuta gətiriləcək. Prosesin davamlılığına müəyyən qədər təsir etməyə cəhd göstərəcəklər. Əks halda, düşünürəm ki, aparılmış siyasət sonda yeni bir məzənnə dəyişikliyinə gətirib çıxara bilər ki, bu da manatın yenidən kəskin şəkildə ucuzlaşmasına səbəb ola bilər. Eyni zamanda, bu gün baş verənlərə dəstək göstərən, kömək olan amillərdən biri də biznes aktivliyinin aşağı düşməsidir. Təkcə yanvar ayında ötən illə müqayisədə ölkəyə idxalın həcmi təxminən 50 faiz artıq azalıb. İdxal həcminin azalması statistik rəqəmlərdə 50 faizdir. Düşünürəm, real rəqəmlərdə bu, kifayət qədər böyükdür. Çünki 2016-cı ilin yanvarı və 2015-ci ilin yanvarı ilə müqayisə etdikdə, burada nəzərə almaq lazımdır ki, 2016-cı ildə idxal olunan məhsulların leqal şəkildə qeydiyyata alınması idxal rəqəmlərinin əslində müqayisədə daha az olmasını, 3-4 dəfə az olmasını deməyə əsas verir. Məhz bu arqument özü də yəni xarici valyuta axınını məhdudlaşdıran amil hesab olunu ki, o, özü də Mərkəzi Bankın bu gün həyata keçirdiyi məzənnə siyasətinə haradasa təkan verir. Amma əgər məhsulların azalması və idxal ehtiyatının yaranması və yenidən sahibkarların yeni yaranmış situasiyaya uyğunlaşmasından sonra nisbətən aktivləşməsi ölkədə yeni bir ciddi dollar tələbi formalaşdıracaq. Bu da Mərkəzi Bankın hazırkı məzənnə siyasətini uzunmüddətli dövrdə davam etdirə bilməməsinə səbəb olacaq. Çünki 2016-cı il ərzində Neft Fondunun bazarda iştirakçılığı, dollar konventasiyası kifayət qədər aşağı düşəcək, 4 dəfə azalacaq. Təxminən gözlənilir ki, il ərzində Neft Fondu bazara 3,5 milyard dollar çıxarsın. Artıq milyon dolları yanvar ayında çıxarıb. Bu, ölkədə xarici valyuta qıtlığının yaranmasına gətirib çıxaracaq. Prosesi uzun müddət bu şəkildə davam etdirmək çox çətindir".

❑ **Röya RƏFİYEVA**



# Tağı Əhmədovun pullarının batdığı bankın adı bəlli oldu - "Texnikabank"

## Bankın iflasından sonra Bakı Metropoliteninin sabiq rəisinin 8 milyon pulunu xilas edə bilmədiyi deyilir

**Bakı Metropolitenin sabiq rəisi, hazırda Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının sədri olan Tağı Əhmədovun manatın devalvasiyasından sonra bağlanan banklarda külli miqdarda pulunun batması haqda bir neçə gündür ölkə mətbuatında məlumatlar yayılır.**

1998-2014-cü illər arasında Bakı Metropoliteninin rəisi vəzifəsində çalışmış Tağı Əhmədovun hazırkı əmlakının milyonlarla dollar dəyəri olduğu deyilir. Ölkənin ən gəlirli sahələrindən birinə 16 il rəhbərlik etmiş T.Əhmədov vəzifədən uzaqlaşdırılarkən onun dövlət büdcəsindən milyonlarla manat mənimsəməsi, vergidən yayınması haqda məlumatlar dərc edilməyə başladı. Əsasən də metro keçidlərindəki ticarət obyektlərindən gələn gəlirlərin çox az bir hissəsini dövlət büdcəsinə yönəltdiyi iddia olunan T.Əhmədovun həbs ediləcəyi ilə bağlı xəbərlər də gündəmə gəlmişdi. Lakin yazılanların tam əksinə, hökumətə uzun illər xidmət edən T.Əhmədov yeni vəzifəyə gətirildi. O, YAP-ın Yasamal Rayon Təşkilatının sədri oldu və hazırda partiyanın rayonda yeni tikilən möhtəşəm iqamətgahında iş başındadır.

Mediada indiyədək dəfələrlə bildirilib ki, T.Əhmədov hazırda sahib olduğu sərvətinin əsas hissəsini metro ticarətindən əldə edib. Həmçinin indiyədək o da bildirilib ki, metropolitendə ciddi vergidən yayınma və başqa bəd əməllərə də yol verilib.

T.Əhmədovun rəis olduğu dövrdə metro keçidlərindəki ticarətə onun yaxın qohumları nəzarət edirdi. Bakı Metropoliteninin ticarətdən gələn illik gəliri isə 10 milyon manatlarla ölçülürdü. Keçidlərdəki mağazaların əksəriyyəti onun yaxın qohumlarına məxsus idi və ticarətçilərə icarəyə verilmişdi. Bu illər ərzində T.Əhmədov yığdığı sərvəti həm ölkədəki, həm də xaricdəki banklara əmanət olaraq yerləşdirib. Sabiq rəisin Bakıda və Naxçıvanda da bir neçə dəbdəbəli villalarının olduğu bildirilir.

Manatın devalvasiyasından sonra T.Əhmədovun ölkə banklarında olan əmanətinin bir hissəsi təhlükə qarşısında qalıb. Belə ki, sabiq rəisin milyonları fevralın 2-də bağlanan "Texnikabank"da batıb.

"Yeni Müsavat"ı bilgiləndirən mənbənin iddiasına görə, T.Əhmədovun iflas olan bankda 8 milyon manat əmanəti olub. Fevralın 10-da 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin qərarı ilə "Texnikabank" ASC müflis elan edilib və iflas proseduru başlanılıb. Bununla da T.Əhmədov əmanətini geri ala bilməyib.

T.Əhmədov bankda milyonlara manatının batması haqda yayılan xəbərlərə münasibət bildirməkdən imtina edir. "Yeni Müsavat" qəzetinin və digər media nümayəndələrinin israrlarına baxmayaraq T.Əhmədov bu haqda danışmaq istəmədiyini bildirir. Yalnız sonuncu dəfə azvison.az saytına qısa açıqlama verən T.Əhmədov bu xəbərlərin yalan olduğunu deməklə kifayətlənib.

Xatırladaq ki, əmanətlərin Sığortalanması Fondunu Himayəçilik Şurasının fevralın 11-də verdiyi qərara əsasən sığorta hadisəsi baş vermiş "Texnikabank" ASC-nin qorunan əmanətçilərinə kompensasiyaların ödənilməsi üçün agent bank olaraq "Muğanbank" ASC və "Rabitə Bank" ASC seçilib.

❑ **İlkin MURADOV**
**Musavat.com**

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

**İqtisadçı-alim Qubad İbadoğlu yenidən "Mədən Sənayesində Şəffaflıq Təşəbbübüsü" təşkilatının (MSŞT) beynəlxalq İdarə Heyətinə tam hüquqlu üzv seçilib. O, növbəti 3 il bu mötəbər qurumda Avrasiya regionunu təmsil edəcək yeganə azərbaycanlı olacaq: "Növbəti dönəmdə Azərbaycan hakimiyyət nümayəndəsinin seçilməməsi bu mötəbər qurumda ən azı 2 məsələdə ölkənin və regionun maraqlarını qorumaq məsuliyyətini mənim üzərimə qoyur". Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov isə MSŞT-nin İdarə Heyətindən təmsil olunmaq üçün namizədliyini irəli sürsə də, səsvermənin nəticəsində ukraynalı həmkarına uduzub. Q.İbadoğlu musavat.com-a MSŞT-yə üzv seçilməsi, üzvlüyün dövlətlər üçün əhəmiyyəti kimi məsələlərdən danışıb.**

# "Azərbaycan MSŞT-yə üzvlükdən çıxarıla bilər"

## **Qubad İbadoğlu:** "Əgər hökumət problemlərin həllinə nail olacaqsa, o halda MSŞT İdarə Heyəti Azərbaycanın statusunu qaytara bilər..."



"Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü həm məzmun və həm də coğrafi baxımdan getdikcə genişlənməkdədir. Bu, yalnız təşəbbüsə önəm verən ABŞ, Böyük Britaniya, Norveç kimi dünya nəhənglərinin üzvlüyə qəbul olunması ilə deyil, həm də mədən sənayesi sektorlarına təsirlərinin çoxalması ilə xarakterizə olunur. Hazırda bü təşəbbüsə üzv olan ölkələrin sayı 49-dur. Onlardan 31-i MSŞT-nin tam hüquqlu, 18-i isə namizəd üzvüdür. Təşəbbüsə yaxın müddətdə Almaniya, Fransa, Avstraliya və Kanada da qoşulmaq niyyətlərini bəyan ediblər. Bu təşəbbüsə yerli və beynəlxalq səviyyədə fəaliyyət göstərən 800-dən çox vətəndaş cəmiyyəti institutları cəlb olunub. Neft, qaz və mədən sənayesi sahəsində fəaliyyət göstərən və 19 trilyon dollardan çox aktivləri idarə edən 90 institusional investor təşəbbüsə dəstək verir. İndiyə qədər 44 ölkə 279 fiskal ili və 1,8 trilyon dollardan çox dövlət gəlirlərini əhatə edən hesabatlar açıqlayıb", - deyə ekspert qeyd edib.

**Onun sözlərinə görə, hazırda seçilən beynəlxalq İdarə Heyəti yeni tərkibdə 2016-2019-cu illərdə fəaliyyət göstərəcək:** "Bu heyətdə MSŞT-ni tətbiq edən hökumətlərin 5, onu dəstəkləyən dövlətlərin 3, vətəndaş cəmiyyətinin 5, neft, qaz və mədən sənayesi sahəsində fəaliyyət göstərən iri şirkətlərin 5, investorların 1 nümayəndəsi təmsil olunur. Beləliklə, İdarə Heyəti 19 nəfər tam hüquqlu üzvdən və 1 sədrdən ibarətdir. Yeni tərkibdə İdarə Heyətinə İsveçin keçmiş baş naziri Fredrik Reinfeldtin sədrlik edəcəyi gözlənilir. Növbət İdarə Heyətinin təsdiqi fevralın 24-25-də Perunun paytaxtı olan Lima şəhərində keçirilən "Hesabatlardan nəticələrədək" adlanan MSŞT-nin 7-ci qlobal konfransında olacaq. MSŞT-nin idarəetmə qaydalarına görə, hər bir tərəf-hökumətlər, vətəndaş cəmiyyəti və şirkətlər müstəqil surətdə İdarə Heyətinə nümayəndələrini seçirlər".

**Q.İbadoğlu Ş.Mövsümovun seçilməməsinə bu cür aydınlıq gətirib:** "Hökumətlər və vətəndaş cəmiyyəti nümayəndələrinin seçkisi zamanı regional təmsilçilik nəzərə alınır. Azərbaycan Avrasiya regionuna daxildir. Bizim regiondan hökumət 1 əsas və 1 əvəzedici, eyni zamanda vətəndaş cəmiyyəti də eyni qayda ilə 1 əsas və 1 əvəzedici üzv seçir. Köhnə tərkibdə Dövlət Neft Fondunun icracı direktoru, MSŞT Komissiyasının sədri Şahmar Mövsümov Avrasiya regionuna daxil olan üzv dövlətlərinin hökumətlərini, mən isə vətəndaş cəmiyyətini əsas heyətdə təmsil edirdim. Hər ikimizin əvəzedici Qazaxıstandan hökumət və vətəndaş cəmiyyəti nümayəndəsi idi. Bu dəfə seçkilər zamanı Avrasiya regionunda Ukrayna hökumətinin mümayəndəsinin əsas və Qazaxıstan hökumətinin nümayəndəsini isə əvəzedici heyətə seçdilər. Vətəndaş cəmiyyətinə gəlincə, Avrasiya regionundan mən əsas heyətə, Ukraynalı həmkarım isə əvəzedici heyətə seçildi. Hökumət nümayəndlərinin seçkisi əvvəl aparıldığından Şahmar Mövsümovun seçilməməsi məni çox təəccübləndirdi. Çünki Şahmar müəllim İdarə Heyətinin ən fəal üzvlərindən biri idi. Beynəlxalq səviyyədə MSŞT prosesinə xeyli töhfələr vermişdi. Odur ki, onun nəyə görə seçilməməsini şərh edə bilmərəm".

**Hazırda MSŞT-də təmsil olunan yeganə azərbaycanlı olmasının üstünlük və təhlükələrindən söz açan Q.İbadoğlu qeyd edib ki, bu, daha çox məsuliyyət yaradır:** "Artıq 3 ildir ki, MSŞT-nin Beynəlxalq İdarə Heyətində əsas üzv olaraq fəaliyyət göstərib xeyli təcrübə yığmışam. Növbəti dönəm çox mürəkkəb və məsuliyyəti dövrü əhatə edir. Avrasiya regionunu təmsil edən yeganə azərbaycanlı kimi bu, mənim həm məsuliyyətimi artırır və həm də yükümü çoxaldır. Ötən heyətdə birgə fəaliyyətimiz zamanı bir çox məsələlərdə aramızda fikir ayrılığı olsa da, elə məsələlər var ki, orada Şahmar Mövsümovla eyni mövqedən çıxış etmişik. Məsələn, Ermənistanın üzlüklə bağlı müraciətinin İdarə Heyətində müzakirəsi zamanı məhz birgə mövqedən çıxış etməyimizin nəticəsində nail olduq ki, MSŞT beynəlxalq katibliyi açıqlama versin ki, Ermənistanın hökumətinin hesabatları yalnız bu ölkənin tanınmış sərhədləri çərçivəsindəki fəaliyyətinə aid ola bilər, işğal olunmuş ərazilərdə fəaliyyət, birbaşa və ya dolayı yolla bu hesabatlara salına bilməz. Çox böyük ehtimalla İdarə Heyəti yeni tərkibdə Ermənistanın üzvlük məsələsinə də baxacaq. Ermənistanın MSŞT-yə üzv olmasına dair danışıqlar 3 il öncə başlanıb. Bu danışıqlar, demək olar ki, yekun mərhələyə çatıb. Təbii ki, belə milli və dövlət maraqlarının qorunması istiqamətində fəaliyyəti davam etdirəcəm. Amma biz hələ ötən İdarə Heyətində də gördük ki, bu tip məsələlərdə hökumətlə vətəndaş cəmiyyətinin eyni mövqedən çıxış etməsi lazım olan nəticələrə gətirib çıxarır".

**Q.İbadoğlu vurğulayıb ki, bu ilin aprelin 15-də Azərbaycanının öhdəliklərini qiymətləndirilməsi başlayacaq**: "Bu, çox geniş spektrli dəyərləndirmə olacaq. Qiymətləndirmə hesabatı əsasında Azərbaycan Respublikasının bu təşkilat qarşısında öhdəliklərinin icrası müzakirə olunacaq və ölkənin statusu yenidən dəyərləndiriləcək. Xatırladım ki, ötən il yerli vətəndaş cəmiyyətinin bu təşəbbüsdə iştirak imkanlarını dəyərləndirən beynəlxalq faktaraşdırıcı missiyanın hesabatı əsasında ölkənin öhdəlikləri qiymətləndirilmiş və onların rəyi əsasında İdarə Heyətinin 15 aprel 2015-ci il tarixli toplantısında Azərbaycanın statusu tam hüquqlu üzvdən namizəd səviyyəsinə endirilib. Bundan sonra İdarə Heyəti Azərbaycan hökumətinə 1 il üçün islahedici plan təqdim edib. Bu ilin aprel ayında islahedici planın müddəti başa çatır və bundan sonra onun icrası ilə bağlı İdarə Heyətində yenidən müzakirələr aparılacaq və Azərbaycanın statusuna dair təkrar qərar veriləcək".

**Gözləntilərdən danışan Q.İbadoğlu deyib ki, əsas qiymətləndirmə predmeti vətəndaş cəmiyyətinin bu təşəbbüsdə iştirakı olacaq**: "Bu istiqamətdə vəziyyət ağır olaraq qalır. Ümumi kontekstdə vətəndaş cəmiyyəti instututları ciddi çətinliklərlə qarşılaşdılar. Beynəlxalq təşkilatlarla əməkdaşlıq imkanları məhdudlaşıb, yerli QHT-lərin bir qrupunun bank hesabları hələ də bağlıdır, onların üzərinə əsassız olaraq vergi cərimələri qoyulub. Təşkilatçıların təmsilçilərinin sərhəd məntəqələrində xüsusi yoxlamalardan keçirilməsi davam edir, bəzi ictimai fəallar ölkəni məcburən tərk edib, bəzilərinə ölkədən çıxış qadağı qoyulub, tanınmış QHT liderləri hələ də həbsdədirlər. Xüsusi olaraq "Mədən sənayesində şəffaflığın artırılması" QHT Koalisiyasının üzvlərinin də bu qəbildən olan çoxsaylı problemləri qalır. Baxmayaraq ki, MSŞT sədri xanım Kleir Şiort ötən ilin oktyabrın 8-də prezident İlham Əliyevlə görüşəndə ona söz verilmişdi ki, bu problemlər həll olunacaq. Amma bu istiqamətdə işlər çox ləng gedir. Yenə də çox şey Azərbaycan hökumətinin bu tip öhdəliklərə necə əməl etməsi səviyyəsindən asılı olacaq. Hələ az da olsa vaxt var, əgər hökumət bu istiqamətdə ciddi qərarlar qəbul edəcəksə, problemlərin həllinə nail olacaqsa, o halda MSŞT İdarə Heyəti Azərbaycanın statusunu qaytara bilər. Əks təqdirdə isə Azərbaycanın bu qurumda fəaliyyəti dayana və ya ölkəmiz hətta üzvlükdən də çıxarıla bilər. Bu quruma üzvlük Azərbaycana çox şey verir. Əvvəla, neft gəlirləri barədə Azərbaycan icmaiyyəti müntəzəm olaraq məlumatlandırılır. Hazırda malik olduğumuz 33 milyardlıq ehtiyatlarımızın formalaşmasında və saxlanmasında bu təşəbbüsün az rolu olmayıb, yoxsa indi o pullar da xərclənmişdi. Digər tərəfdən, Azərbaycanın investistorların cəlbində MSŞT-nin rolu böyük olub. Ötən il Azərbaycan hökuməti bu təşəbbüsü tərk edə bilərik bəyanatını verəndə yalnız BP kimi investorlar deyil, həm də Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi kreditorlar da narahatlıqlarını ifadə etmişdilər. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatının investisiyalara və kreditlərə ehtiyacı indi daha da çoxalıb, o baxımdan, MSŞT-də fəaliyyətimizi davam etdirmək strateji maraqlarımıza cavab verir".

❑ **Röya RƏFİYEVA**

# "Azəryolservis" ASC-dən çat açıqlaması: "Panikaya səbəb yoxdur"



**"O çat köhnədir, panikaya heç bir səbəb yoxdur". Bu sözləri "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli Bakı-Sumqayıt yolunun Avtovağzal hissəsində yaranmış çatla bağlı "Yeni Müsavat"a açıqlamasında səsləndirib.**

Anar Nəcəfli bildirib ki, bu haqda onlarda məlumat var və sırası gələndə o problemlər də aradan qaldırılacaq: "Orda yeni çat yoxdur. Köhnədir. Bununla bağlı məlumatımız var. Panikaya səbəb yoxdur. Orada heç bir təhlükə də yoxdur. Yeni çat deyil. İnsanlar arasında niyə, hansı məqsədlə təşviş yaradırlar, anlamıram. Bu çat Bakıdan Sumqayıta doğru gedən istiqamətdədir. Avtovağzal tərəfdə bərkitmə işləri yekunlaşan kimi həm Sumqayıt istiqamətindən Bakıya giriş tərəf, həm də əksinə, Bakıdan-Sumqayıta gedən tərəfdə olan yolun deformasiyaya uğramış hissələri bərpa ediləcək".

**Qeyd edək ki, Bakı-Sumqayıt şosesinin avtovağzal kompleksinə yaxın hissəsində yol yenidən çöküb. Yağan yağış və avtomobillərin yolun çökən hissəsində intensiv hərəkəti nəticəsində çat daha da böyüyüb. Yolun bir hissəsinin deformasiyaya uğraması nəticəsində qəza şəraiti yaranıb.**

❑ **Məğrur MƏRD**

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

**Dünyada səs-küy doğuran olaylardan biri də heç şübhəsiz ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğanla bağlıdır. Belə ki, artıq İtaliya prokurorluğu ona qarşı cinayət işi açıb. B.Ərdoğan çirkli pulların yuyulmasında ittiham olunur.**

# Kriminal xronikada adları keçən prezident uşaqları...

## Dünyada ölkə rəhbərlərinin də övladları həbs olunur, cəzalandırılır və...






İtaliya prokurorluğu araşdırmalara Türkiyədən olan biznesmen Murad Hakan Uzanın müraciətindən sonra başlayıb. O bildirib ki, B.Ərdoğan Türkiyədən İtaliyaya külli miqdarda qeyri-leqal pul gətirib.

Bu isə bizə bu günə qədər dünyada prezident uşaqları ilə bağlı kriminal xronikanı xatırlatmağı xatırlatdı. Kimlər, nəyə görə ittiham olunub? Hansı cinayət işində adları hallandırılıb? Və sair...

### Kriminal xronikanın sevimlisi - Uday Hüseyn...

Bu siyahıya hər zaman **Səddam Hüseynin oğlu Uday Hüseyn** başçılıq edib. Uday Hüseyn atasının ölkəni yumruqla idarə etməsindən yararlanaraq bir çox cinayətlər törətmişdi. Günün çoxunu içkili halda olan Uday Hüseynin cinayətlərindən ən dəhşətlisi atasının dadbilənini (dequstator) məclislərin birində elektrik oyma bıçaqla doğrayaraq öldürməsi idi. Bundan əlavə Uday Hüseyn dəbdəbəli həyat tərzi ilə də yadda qalıb. Buna misal olaraq isə Uday Hüseynin 1200-dən çox bahalı maşınlarının olmasını göstərmək olar.

Eyni zamanda İraqdakı istənilən qadına təcavüz edirdi. Qadınları yoldan oğurlayır və Udayın hüzuruna gətirirdilər. Onunla birgə olmaq istəməyən qadınları isə öldürürdü. Deyilənə görə, qadınlara təcavüz edəndən sonra Uday onların kürəyini adının baş hərfi olan "U" ilə damğalayırdı. Bundan başqa, Uday hədsiz sadistliyi ilə də ad qazanmışdı. Onun 2 köməkçisini ölümünə qədər döyməsi, habelə İraq türmələrindəki işgəncələrdə şəxsən iştirak etməsi də yayılan xəbərlər sırasındadır.

**Udayın qardaşı Qusey Hüseyn** isə gizli polis idarəsi yaratmışdı və bu idarə müxalifətə qarşı amansız əməliyyatlarla məşhur idi. Qardaşlar 2003-cü ildə, artıq İraq işğal olunan zaman Şeyx Nəvvaf Zeydanın iqamətgahı bombalanan zaman orda ölüblər.

### Narkotacir və orqan alverçisi - belə varisdən harda var?

**Jean-Claude Duvalier - Haitidə Jean Claude Duvalier (bəzən "Baby Doc" da adlandırırlar) keçmiş Haiti diktatoru olmuş Francois Duvalierin (bəzən "Papa Doc" da adlandırırlar) oğludur və 19 yaşında da atası vəfat etdikdən sonra hakimiyyətə gəlib.** Tarixə dünyanın ən gənc prezidenti kimi düşüb. Hakimiyyətə gəldikdən sonra əlindəki gücdən istifadə edərək narkoticarət və Haitidə öldürülmüş insanların orqan ticarəti ilə də məşğul olub.

**Kim Jong In - Şimali Koreyanın ikinci ölməz lideri olan Kim Jong İl-in oğlu Kim Jong In atasının ölümündən sonra hakimiyyətə gəldi.** Həm də dünyanın ən gənc lideri seçildi Kim In. Hazırda Koreya Əmək Partiyasının Birinci Katibi, Koreya Xalq Demokratik Respublikasının Dövlət Müdafiə Komitəsinin Birinci Sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanıdır. Mifoloji maşını artıq çoxdan işə düşüb, Şimali Koreyada onun atasına və babasına hər sahədə oxşadığı beyinlərinə yeridilib.

### Atası öldü, onu mühakimə etdilər...

**Stalinin oğlu Vasili haqda da tarix xoş şeylər demir.** Cəsarətli pilot olmasına baxmayaraq - müharibə zamanı iki alman təyyarəsini vurub - həyatı o qədər də yaxşı olmayıb. Xarakter etibarilə çılğın olan Vasili general kimi ad qazansa da, onun aylarla orduya gəlmədiyi, dövlət büdcəsini talan etdiyi - 20 milyon rubl yeyintiyə yol verib, eyni zamanda əyyaş həyat tərzi keçirdiyi, rəhbərliyi altında olan qadınlarla yaşadığı da gəzən söz-söhbətlər arasında olub. Atası bu hərəkətlərinə görə onunla danışmırdı. Amma Stalinin ölümündən sonra oğlunu dövlətə qarşı etdiyi əməllərə görə 8 il müddətinə azadlıqdan məhrum etdilər.

### Hitlerin bivec oğlu, ya...?

Hitler də şəxsi həyatında çox ziddiyyətli şəxs olub. Fransa vətəndaşı olan Jan Mari Lorenin 1981-ci ildə yazdığı «Sənin atan Hitlerdir» kitabında Hitlerin gizli oğlu olduğunu bildirib. Lore və Hitlerin qohumluğu barədə əsl həqiqət onun vəkili Fransua Gibonun sayəsində üzə çıxıb. Lorenin yazdığına görə anası 16 yaşlı Şarlotta Lobjua ilə yefreytor Hitler arasında roman 1917-ci ildə - alman ordusu Fransanın Pikardiya şəhərində yerləşərkən yaşanıb. 1918-ci ilin martında Lore dünyaya gəlir. Qonşular və uşağı nifrətlə «kiçik boş» (Fransada almanlardan dünyaya gələn uşaqları belə adlandırırdılar) deyə çağırırdılar. Təhqir və istehzadan bezən Şarlotta bir neçə ildən sonra uşağı gənc bir ailəyə övladlığa verir. Taleyin gərdişinə bax ki, 1939-cu ildə Hitlerin oğlu Almaniya faşistlərinin əleyhinə vuruşmaq üçün müharibəyə gedir, işğal vaxtı isə fransız partizanlarına qoşularaq Klement ləqəbini götürür. 1950-ci illərin əvvəllərində doğma anası ölümündən əvvəl Loreyə əsl atasının kimliyini deyir. Bu, onun üçün böyük şok olur. Özünün dediyinə görə, düz 20 il durmadan çalışır ki, əsl kimliyini unutsun.

**Rumıniya diktatoru Nikolay Çauşevskinin kiçik oğlu Nikolay atası hakimiyyətdə olanda onun bütün imtiyazlarından istifadə edirdi.** Atası barədə rəsmi KİV-lər "Karpatın dahisi", "Görünməmiş yeniliklər müəllifi" yazırdılarsa, oğlunu "Drakulito" deyə çağırırdılar. O, bütün ölkədə "qız ovu" ilə məşhurlaşmışdı. Diktator oğlunun xoşuna gələn qadınları zorlamaq adəti vardı. Və demək olar ki, bütün qadınlar onun zövqünə uyğun gəlirdi. Amma atasının hakimiyyətdən devrilməsi və öldürülməsindən sonra onunla bağlı ədalət də bərpa olundu və 20 il müddətinə azadlıqdan məhrum edildi. Azadlığa çıxandan sonra isə böyrək serrozundan dünyasını dəyişdi.

**Çauşevskinin digər oğlu Valentin və qızı Zoya isə daha təvazökar həyat tərzi aparırdılar.** Amma onlar da maliyyə fırıldaqlarına görə türmənin qapısını tanıdılar. Zoya 2006-cı ildə xərçəngdən dünyasını dəyişdi. Valentin isə türmədən çıxandan sonra fizik kimi fəaliyyət göstərdi.

### Qəzzafinin qəddar oğlu hamilə yoldaşını döyüb

**Liviya rəhbəri Muammer Qəzzafinin 6 oğlu və bir qızı olub.** Atasının hakimiyyəti dövründə uşaqları rəhbərlikdə yüksək vəzifələr tutublar. Onların idarəsində milyardlarla dollar və atalarının hüdudsuz hakimiyyəti olub. Amma hamıdan çox onun oğlu Hannibal pis şöhrət qazanmışdı - o, insanlara qarşı amansız münasibəti ilə tanınırdı. 2008-ci ildə hətta İsveçrədə onu otel işçisini amansızcasına döyməsinə görə həbs etmişdilər. Bu insident İsveçrə ilə Liviya arasında konfliktlə nəticələnmişdi. Hannibal akulalar üçün hovuz tikdirir, Parisdə dəlicəsinə yüksək sürətlə maşın sürür və hamilə həyat yoldaşını Londonda döyürdü.

**Qəzzafi rejiminin çökməsindən sonra onun iki oğlu - Saif əl-Arab və Hamis Qəzzafi atışma zamanı həlak olub. Hannibal isə anası Safiya, bacısı Ayşə və ögey qardaşı Məhəmmədlə birgə Əlcəzairə qaça bildi.**

### Buşun içki düşkünü qızları da polisə düşüb

Diktator olmayan, demokratiya paytaxtlarında oturan "papaların" övladları da bir sıra hallarda xüsusi şıltaqlıqları ilə seçiliblər. Amerikanın keçmiş prezidenti Corc Buşun qızları Cenna və Barbara Buş spirtli içkilərə hədsiz aludə olublar. 2001-ci ildə polis Barbaranı gecə barında hədsiz içkili vəziyyətdə yaxalayıb. Buşun digər qızı Cenna da bacısından geri qalmayıb. Uels Universitetinin tələbəsi olan Cenna da Ostindəki digər bir restoranda "Marqarita" içkisi sifariş etdiyi üçün polis tərəfindən cəzalandırılıb.

Böyük Britaniyanın keçmiş baş naziri Marqaret Tetçerin oğlu Mark Tetçer isə hər dəfə tarixə fərqli qalmaqallarla girib. 2005-ci ildə 52 yaşlı biznesmeni Qvineyada çevrilişə görə ittiham edərək 500 min dollar məbləğində cərimələdilər və 4 il şərti cəza verdilər. Bundan başqa, o, qanunsuz silah alverinə, habelə iri dələduzluq faktlarına görə dəfələrlə ittiham edilib. Anası Marqaret Tetçer isə onun haqqında aşağıdakı unikal sözləri deyib: "Mark pulları o qədər çox sevir ki, eskimoslara qar, ərəblərə qum sata bilər".

**Obamanın 16 yaşlı böyük qızının Pro Ero rep-qrupunun instagram səhifəsində öz fotosunu paylaşması qalmaqala səbəb olmuşdu.**

Fotoda prezident qızı qrupun loqotipi əks olunan köynəkdə poza vermişdi.

Xatırladaq ki, əvvəl də dekabr ayında respublikaçı konqresmen Stiven Finçerin mətbuat katibi Elizabet Lauten prezident B.Obamanın qızlarını statuslarına hörmət etməməkdə ittiham etmişdi.

O, hesab edirdi ki, Saşa və Mali teleefirdə özlərini düzgün aparmırlar və prezident qızları kimi geyinmirlər.

**Məhz bu çıxışına görə Elizabet Lauten işindən qovulmuşdu.**

❑ **Sevinc TELMANQIZI**

# Prezident qızına rüşvət verməkdə suçlanan şirkət cərimələndi


Gülnarə Kərimova

**Bermud adalarında qeydiyyatdan keçmiş qlobal telekommunikasiyalar şirkəti VimpelCom ona qarşı ABŞ və Hollandiya tərəfindən irəli sürülmüş rüşvət ittihamlarına xitam verilməsi üçün 795 milyon dollar təzminat ödəməyə razılaşıb.**

İddia olunan rüşvəti şirkət Özbəkistan bazarına çıxmaq üçün ödəmişdi.

Xəbər verilir ki, VimpelCom təzminatı ABŞ Maliyyə Nazirliyi və Hollandiya prokurorluğu ilə razılaşma əsasında ödəməyi öhdəsinə götürüb.

Qərargahı Amsterdamda olan şirkət bu pulu ödəməklə özünü ABŞ və Hollandiyanın hüquq-mühafizə orqanları tərəfindən təhqiq olunmaqdan azad edib.

Şirkət Manhattan federal məhkəməsi qarşısında özbək rəsmiyə 114 milyon dollar rüşvət verdiyini etiraf edib.

Bundan əvvəl ABŞ Ədliyyə Nazirliyi həmin "özbək rəsmisi"nə rüşvət vermis VimpelCom və iki başqa şirkətin İsveç banklarında 550 milyon dollarının müsadirə olunması barədə vəsatət qaldırmışdı.

İş üzrə sənədlərdə "özbək rəsmisinin" "yüksək vəzifəli başqa bir özbək rəsmisinin yaxın qohumu" olduğu bildirilir.

Reuters agentliyi yazır ki, işdə təsvir olunmuş əlamətlərə görə söhbətin prezident qızı Gülnarə Kərimovadan getdiyi bəlli olur.

Ədliyyə Nazirliyinin sənədlərinə görə, VimpelCom, Teliasonera AB və Mobile TeleSystems şirkətləri sözügedən rəsmi tərəfindən idarə olunan qondarma şirkətə 800 milyon dollar pul köçürmüşdülər. Bu vəsait onlara Özbəkistan bazarına daxil olmaq imkanı verməliydi.

Reuters xəbər verir ki, bu, ABŞ tarixində məbləğinə görə ikinci böyük rüşvət cəriməsidir.

Prezident İslam Karimovun qızı olduğu iddia edilən şəxsin əlaltıları verilmiş rüşvəti Latviya, Böyük Britaniya, Honk Konq, İrlandiya, Belçika, Lüksemburq və İsveçrə bankları vasitəsilə "yuyurdular".

Rusiya mediası söhbətin Karimovaya çox yaxın iki şəxsdən - onun nikahsız əri Rustam Madumarovdan və onun yaxın rəfiqəsi Qayane Avakyandan getdiyini yazır.

VimpelCom şirkətinin baş hüquqşünası, Özbəkistanla müştərək Unitel LLC şirkətinin ABŞ-ın xaricdə rüşvət qanununu pozduğunu etiraf edib və bildirib ki, bir daha belə əməllərə yol verilməyəcək.

Hollandiya rəsmiləri isə bildirirlər ki, "özbək işi" ilə bağlı bir nəfər hazırda həbsdədir.

Xəbər verilir ki, VimpelCom cəriməni ödədikdən sonra üç il müddətində xüsusi orqanların nəzarəti altında olacaq.

❑ **Azadlıq radiosu**

# Sürücülər cərimədən dərhal xəbər tuta biləcək

«Elektron kabinet» yaradın ki, cərimənizdən vaxtında xəbərdar olasız

**Xəbər verdiyimiz kimi, Yeni İnzibati Xətalar Məcəlləsi martın 1-dən qüvvəyə minir. Bu zaman həm sürücülərin, həm də yol polisi əməkdaşlarının üzərinə bəzi məsuliyyət düşür. Məsələn, yol polisi elektron vasitələrin köməyi ilə qeydə alınmış inzibati xəta haqqında protokolu 1 ay ərzində DYP-nin Mərkəzi məlumat sisteminə və sürücünün «elektron kabinet»inə daxil etməzsə, həmin sürücü məsuliyyətə cəlb oluna bilməz.**



Buna görə yol polisi əməkdaşını 500-700 manat cərimə gözləyir. Amma sürücülərin əksəriyyəti «elektron kabinet» anlayışından xəbərsizdir və bəziləri güman edir ki, «elektron kabinet» hansısa binada qəşəng bir otaqdır və sürücü gedib orada istirahət edərək cərimələrini öyrənə bilər. Xeyr! Belə deyil. «Elektron kabinet» «ASAN xidmət»də sürücülər üçün yaradılmış bir sistemdir. Siz də özünüzə «elektron kabinet» yaratmaq istəyirsinizsə Avtosfer.az-ın təqdim etdiyi bu materiala diqqət edin. Bunun üçün ilk növbədə Asanpay.az saytına daxil olmaq lazımdır. Aşağı sağ tərəfdə adınızı və kodunuzu yazırsınız. Əgər siz bu saytda əvvəllər qeydiyyatdan keçməmisinizsə, o zaman mobil telefon nömrənizi yazıb aşağıdakı simvolları daxil edirsiniz. Bu zaman sizin mobil telefonunuza SMS gələcək. Həmin SMS-dəki kodu daxil edərək qeydiyyatdan keçə bilərsiniz. Qeydiyyat prosesi çox sadədədir. Adınızı, e-mail ünvanınızı, mobil telefon nömrənizi qeyd edirsiniz, istədiyiniz şifrəni yazıb şəxsiyyət vəsiqəsindəki 7 simvolu (vəsiqənin üz qabığında aşağıdakı simvolların axırıncı 7-si lazımdır. Bu zaman lap axırdakı rəqəmi yazmırsız, həmin rəqəmdən əvvəldəki 7 simvolu daxil edin) daxil edərək qeydiyyatdan keçirsiz. Budur, artıq sizin «elektron kabinet»iniz hazırdır və bundan sonra törətmiş olduğunuz hər hansı inzibati xəta ilə bağlı yazılı və elektron protokol tərtib olunarsa, dərhal bu kabinetə yerləşdiriləcək. Siz bunu asanlıqla və istədiyiniz zaman görə bilərsiniz.

Amma bu sistemə yerləşdirilən cərimələrlə bağlı məlumatların Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının və bank-poçt işçilərinin görə biləcəyi hələ tam dəqiq məlum deyil. Burada göstərilən cərimələrin elektron qaydada və ya bank-poçt vasitəsilə ödənilməsinin mümkün olub-olmaması barədə növbəti yazılarımızda məlumat verəcəyik. Çünki «kabinet»dəki cərimələrin 10 gündən sonra qərara çevrilib-çevrilməyəcəyi məlum deyi. DYP bunu yəqin ki, nəzərə alacaq. Yaxşı olardı ki, «elektron kabinet»ə yerləşdirilən cərimələrin ödənilməsində də çətinlik olmasın. Yəni sürücülər yenə də məcbur qalıb DYP şöbələrinə getmədən Asanpay.az saytında elektron ödəniş edə bilsinlər və ya bank-poçt vasitəsilə ödənişi həyata keçirə bilsinlər.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Qadın sevgilisini və keçmiş ərini qatil etdi

"Dedi ki, sizi tanıdım, biz də bıçaqla vurub öldürdük"

**Qadın keçmiş əri ilə sevgilisinə ev qarət etməyi təklif etdi: qarət qətllə nəticələndi. Tamah məqsədi ilə öldürülən Bakı sakininin qatilləri 40 gün gizlənə biliblər. Hadisə «Hövsan bağları» adlanan ərazidəki bağ evlərindən birində baş verib. Qəsəbə sakini 52 yaşlı Qalib Bağırovun üzərində bıçaq xəsarətləri olan meyiti yaşadığı evdə aşkarlanıb. Qətlin qarət məqsədi ilə törədilməsini ehtimal edən əməliyyatçılar 45 yaşlı Ehtiram Həsənov və 44 yaşlı Mübariz Əliyevdən əsaslı dəlillər olduğu üçün şübhələnməyə başlayıblar.**

Aparılan istintaq tədbirləri həmin şəxslərin bu cinayətdə əli olduğunu müəyyən edib. Ömrünün 17 ilini həbsxanada keçirən Ehtiram Həsənovu əməliyyatçılar Qaxdan Bakıya qayıdarkən Qəbələ rayon ərazisində həbs ediblər. İstintaqçılarla söhbət zamanı Ehtiram Qalib Bağırovun evinə pul və qızıl-zinət əşyalarını götürmək məqsədi ilə girdiklərini etiraf edib.

Maraqlı məqam odur ki, qətli törədən digər şəxs - Astaranın Ərçivan kənd sakini Mübariz Əliyev Ehtiramın qeyri-rəsmi həyat yoldaşı Mahnurə Hüseynovanın keçmiş əridir. 44 yaşlı Mübariz Əliyevin sözlərinə görə, Ehtiramı keçmiş həyat yoldaşının kirayələdiyi evin sahibi kimi tanıyıb. Qalib Bağırovun evini qarət etmək fikri isə qadına məxsus olub. Mahnurə Hüseynova Ehtiram Həsənova və keçmiş ərinə imkanlı adam kimi tanıdığı Qalib Bağırovun evini qarət etməyi təklif edib.

Hadisə baş verən gün Mahnurə evi onlara göstərib və ərazidən uzaqlaşıb. Səhər tezdən Qalib Bağırov evindən çıxıb işə getmək istəyəndə üzlərini maska ilə bağlayan Ehtiramla Mübariz onu içəri itələyiblər. İş adamı hücum edənlərə "sizi tanıdım" deyəndən sonra canilər onu öldürməyə qərar veriblər...

Vurduqları adamın öldüyünə əmin olduqdan sonra cütlük onları hadisə yerindən aralıda gözləyən Mahnurə Hüseynovanın yanına yollanıb. İşin alınmadığını bilən qadın sevgilisinə və keçmiş ərinə qaçıb gizlənməyi təklif edib.Artıq qadın da tutularaq istintaqa cəlb olunub.

**Faktla əlaqədar Suraxanı rayon prokurorluğunda başlanan cinayət işi üzrə araşdırmalar davam edir.**


**Nərimanov Rayon Məhkəməsinin həyətində *(Montində)* 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.**

**Telefon: (050) 264-49-99**

## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan - daimi suyu , işığı, 3 yaşayış evi, böyük tövləri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**
**Sənədlər qaydasındadır. Qiyməti 150.000 $.**
**Əlaqə nömrəsi: (050) 214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə muraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635-24-08**


## "Nar" ölkənin ən böyük və sürətlə böyüyən sabit internet provayderi olan CityNet-i satın aldı

**"Nar - CityNet" ticarət nişanı ilə ev və biznes üçün etibarlı və yüksək sürətli internet xidmətləri rəqabətədavamlı qiymətlərlə təklif ediləcək.**

**Çoxfunksiyalı rabitə strategiyası çərçivəsində "Nar" ölkənin ən iri sabit internet provayderindən biri olan "CityNet"-i satın aldı. "Nar"ın çoxfunksiyalı rabitə strategiyası, ev və biznes üçün yüksək sürətli və keyfiyyətli sabit internet xidmətlərindən rəqabətədavamlı qiymətlərlə təqdim edilməsini nəzərdə tutan uzunmüddətli proqramdır.**

**Hazırda "CityNet" Abşeron ərazisində FTTx (fiber optik) və ADSL (Assimmetrik Rəqəmsal Abunəçi Xətti) texnologiyaları əsasında yüksəksürətli sabit internet və IPTV xidmətlərini təklif edir. Bu birləşmə nəticəsində "Nar" operatorunun mobil həllərinin dəstəyi ilə "CityNet" inkişaf dinamikasını artırmaq və yeni cəlbedici xidmətlər təqdim etmək imkanı qazanacaq.**

**Bu gün "Nar" genişləndirilmiş, yenilənmiş və rəqabətədavamlı mobil şəbəkəsi sayəsində bütün ölkə boyunca 4G və 3G texnologiyalarına əsaslanan yüksəksürətli mobil internet xidməti göstərir. Mobil operatorun strateji hədəfi etibarlı və yüksəksürətli internet imkanını təkcə mobil telefonlara deyil, eləcə də evlərə və iş yerlərinə çatdırmaqdır. Artıq mobil və sabit şəbəkələrin təkmilləşdirilməsi üçün ciddi sərmayə yatırılıb və gələcəkdə bu sahəyə daha böyük məbləğdə investisiya ayrılması planlaşdırılır.**

**"Nar", sərfəli qiymət və ən üstün xidmət keyfiyyətini təmin etdikdən sonra, "Nar-CityNet" brendi altında "CityNet" tərəfindən təklif edilən məhsulların siyahısını innovativ telekommunakasiya və əyləncə xidmətləri ilə genişləndirməyi nəzərdə tutur. Bununla da, şirkətlər gələcəkdə müştərilər üçün daha əlverişli və sərfəli şərtlərlə mobil və sabit internet xidmətlərinin birgə təqdim olunduğu paketlər təklif edəcəklər.**

**"Bu, "Nar" üçün çox böyük və əhəmiyyətli addımdır. Belə ki, biz xidmətlərimizi sabit internet və pullu televiziya sahəsinə doğru genişləndiririk. Yaranmış yeni vəziyyət müştərilərimizə imkan verəcək ki, onlar bizim üstün keyfiyyətimiz və sərfəli təkliflərimizdən təkcə mobil xidmətlər üçün deyil, eləcə də evlərə təqdim olunan sabit xidmətlər üçün də yararlana bilsinlər. Azərbaycanda ilk dəfə mobil operator müştərilərinə həm mobil, həm də sabit xidmətləri bir brend adı altında təqdim edəcək. Bu, müştərilərimizə innovativ xidmətlərdən maksimum rahatlıqla və ən sərfəli şərtlərlə istifadə etmək təminatı verəcək", - deyə "Azerfon" şirkətinin ("Nar" ticarət nişanı) baş icraçı direktoru Kent Maknili açıqlama verib.**

**Öz növbəsində, "Uninet" şirkətinin ("CityNet" ticarət nişanı) icraçı direktoru Rasim Kərimov isə bu yeniliyi çox mühüm addım adlandırıb: "Müştərilərimiz üçün yeni imkanlar yaradırıq. Biz öz xidmətlərimizi genişləndirərək, müştərilərimizi yeni məhsullar və xidmətlərlə sevindirəcəyik", - deyə o bildirib.**

**"Nar-CityNet" Abşeronun böyük hissəsini əhatə edir. Xidmətin istədiyiniz ünvanda mövcudluğunu www.citynet.az ttp://www.citynet.az saytında yoxlamaq mümkündür. Xidmətə indi qoşulanlar 1 aylıq pulsuz internet və IPTV xidmətindən istifadə etmək fürsəti qazanırlar. Hər bir istifadəçi özünə uyğun tarifi seçərək, yüksəksürətli və keyfiyyətli limitsiz internetdən, həmçinin IPTV xidmətindən ev üçün aylıq 18 AZN, iş yerləri üçün isə aylıq 29 AZN ödəməklə yararlana bilər və beləliklə, çox sərfəli qiymətə əldə etdiyi xidmətdən istifadənin rahatlığını ilk gündəcə hiss edər.**

## Bakıda qayın yeznəsinin mənzilindən 45 min dollar oğurladı

**Bakıda mənzildən oğurluq olub. "Report"un məlumatına görə, hadisə Bakuvi küçəsi ev 12-də baş verib. Həmin ünvanda yaşayan Turan Seyidov hüquq-mühafizə orqanlarına müraciət edərək bildirib ki, qonağı - qaynı Şuşa şəhər sakini 1971-ci il təvəllüdlü Yaşar Məmmədov içərisində 45 min ABŞ dollar olan seyfini oğurlayıb. Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırma aparılır.**

## Bir gündə 89 cinayət, 61 həbs

**Respublikanın daxili işlər orqanları tərəfindən fevralın 18-də 89 cinayət faktı qeydə alınıb, onların da 30-u "isti izlər"lə açılıb. AzVision.az-ın Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarılan 36 nəfər tutularaq istintaq orqanlarına təhvil verilib.**

Bundan əlavə Respublikanın avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb, 12 nəfər yaralanıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 14, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib. Cinayət törətdiklərinə görə 61 nəfər tutulub.

YENİ MÜSAVAT
N 40 (6361) 20 fevral 2016

**Bu günlərdə Qazaxıstanın prezidenti Nursultan Nazarbayev paytaxt supermarketlərindən birinə baş çəkib. O, mağazadan əsasən ölkədə istehsal olunmuş yerli məhsullar alıb. Prezidentin alış-veriş etdiyi mağazada təklif olunan çeşidin yarısı yerli istehsal məhsullar olub.**



# Bazarlarımızdakı məhsulların neçə faizi yerlidir?

## Eyyub Hüseynov: "Yanlış iqtisadi siyasət bazarı xarici məhsullardan asılı vəziyyətə salıb"
## Natiq Cəfərli: "Bazarlarda ən yaxşı halda 30-35 faiz sırf yerli məhsulları görə bilərik"

Azərbaycan marketlərində də yerli məhsullar çoxluq təşkil etsə də, onların əksəriyyətinin xammalı xarici ölkələrdən gətirilir. Sırf yerli istehsal olan məhsullar isə olduqca azdır. Bəs bu məhsullar bazarlarda neçə faiz təşkil edir?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** ərzaq məhsullarının 50 faizinin xarici xammaldan asılı olduğunu bildirdi: "Ərzaq bazarı sektorunun qorunmasında hökumət düzgün və rasional mövqe tutmayıb. Azərbaycanın ərzaq bazarının təxminən 50 faizi xarici məhsullardan asılı vəziyyətdədir. Daxili bazarda logistika düzgün qurulmadığından, effektli kənd təsərrüfatı siyasəti aparılmadığından, bəzən yerli məhsul xarici məhsuldan baha başa gəlir. Ona görə də bu problemlər Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi tərəfindən həll olunmalıdır. Bir sözlə, daxili bazarın tənzimlənməsi kifayət qədər elmi üsullarla idarə olunmur, çox primitiv idarə olunur. Məsələn, illər boyu yarmarkaların yaradılması və yarmarkalarda dövlət məmurunun qiyməti tənzimləməsi gülünc və absurd siyasətdir. Dövlət məmurunun nə ixtiyarı var ki, kartof əkənə gedib deyə ki, sən kartofu bu qiymətə sat. Dövlət məmurunun işi odur ki, bolluq yaratsın, kəndliyə kömək etsin və sairə. Bu səhv siyasət bazarı bu cür xarici məhsullardan asılı vəziyyətə salıb. Üstəlik, əhalinin xarici məhsullara tələbatı da artıb. Bəzi ölkələrdən Azərbaycana saxta, tərkibi məlum olmayan mallar da gətirilir. Lakin normal ekspertiza şəraiti olmadığı bir şəraitdə bu mallar satılır. Bəzən yaxşı mallar da gətirilir. Lakin bunları ayırd etmək məsələləri hələlik həll olunub qurtarmayıb".

**İqtisadçı-ekspert Natiq Cəfərli** heç bir ölkənin 90 faiz məhsulunun yerli ola bilmə ehtimalının mümkün olmadığını bildirdi: "Qazaxıstanda satışda olan malların 90 faizinin yerli məhsul olması ehtimalı bir az aşağıdır. Çünki yəqin ki, bu rəsmi təbliğatın bir növüdür. Çünki dünyanın elə bir ölkəsi yoxdur ki, orada ərzaq məhsullarının 90 faizi öz-özünü təmin etsin. Bu mümkün deyil. Azərbaycana gəldikdə isə, rəsmi statistikaya görə 55-60 faiz civarında biz özümüzü ərzaqla təmin edirik. Amma bu da təbliğat məsələsidir. Çünki yerli məhsul adı altında satışda olan məhsulların böyük əksəriyyətinin xammalı xaricdən gətirilir. O cümlədən "Azərsun" şirkəti xaricdən gətirdiyi xammal əsasında Azərbaycanda bir çox məhsulları istehsal edir. Məsələn, çay məhsullarını götürsək, marketlərdə çoxlu Azərbaycan markası adı altında çaylar satılır. Amma Azərbaycanda bir o qədər çay istehsal olunmur. Lənkəranda kiçik çay plantasiyaları var. Ancaq Azərbaycanın tələbatının çox cüzi bir hissəsini ödəyə bilər. Ona görə xaricdən gətirilmiş xammalı, yəni çay məhsullarını burada sadəcə olaraq qablaşdırıb satışa çıxarırlar. Bunu nə dərəcədə yerli məhsul saymaq olar? Bu artıq sual doğurur. Məncə bu yerli məhsul sayılmır. Sadəcə olaraq yerli brend adı altında istehsala gedir, xammal isə xaricdən gəlir. Süd məhsullarını götürsək, bizim marketlərdə ən çox yerli istehsal kimi süd məhsulları önə çıxır. Onun da istehsalı üçün Azərbaycanda bu qədər xammal yoxdur. Yəni xaricdən alınmış süd tozundan istehsal olunur. Əsasən Ukraynadan, Hollandiyadan əksər hallar İrandan gətirilmiş süd tozunun vasitəsilə Azərbaycanda istehsal olunur və satışa çıxarılır".

**Ekspert Azərbaycan bazarında olan məhsulların yalnız 1/3 hissəsinin sırf yerli məhsul olduğunu dedi:** "Mənim fikrimcə, Azərbaycanda bununla bağlı rəsmi statistikanın verdiyi rəqəmlərdən daha aşağı göstəriciyə malikik. Ən yaxşı halda 30-35 faiz sırf yerli məhsulları bazarlarda görə bilərik. Qalan bütün məhsulların ya özü, ya xammalı xaricdən gətirilir ki, bu da Azərbaycandan kütləvi şəkildə valyuta axınına səbəb olur. Bu, indiki durumda Azərbaycanın ticarət balansı üçün başqı yaradır".

❑ **Günel MANAFLI**

# Azərbaycanda qış turizmini əngəlləyən səbəblər...

## İqtisadçı-ekspert: "Nisbətən bahalı layihələr olduğu üçün bu istiqamətdə dövlət dəstəyinə ehtiyac var"

**Bir çox ölkələr qış turizminə xüsusi önəm verir. Azərbaycanda da qış turizminin inkişafı üçün müəyyən işlər görülsə də, bu sahə özünü doğrulda bilmədi.**



**Turizm sahəsi üzrə ekspert Çingiz İsmayılov** qış turizminin inkişafında həm qiymətlərin, həm də hava iqliminin mühüm rol oynadığını dedi: "Turizm Azərbaycanın inkişaf edə biləcək qeyri-neft sektorlarından biridir. Bu sahə çox perspektivlidir. Amma bu sahənin inkişafına uzun illərdir mane olan səbəblər, çətinliklər var. Bu çətinliklərdən biri rəqabət mühitinin olmamasıdır. Bu rəqabət iqtisadiyyatın hər sahəsində vacibdir. Qonşu ölkələrdə də turizm inkişaf edir. Biz qonşu ölkələrə - Gürcüstana, Rusiyaya nəzər salmalı, oradakı qiymətləri, servisi öyrənməliyik. O ölkələrlə rəqabətə davam gətirən, onlardan daha ucuz və daha keyfiyyətli servis göstərə bilsək, təbii ki, turizmdən lazımi gəlirlər əldə edə bilərik. Bu səbəblə yanaşı, iqlimin də qış turizminə təsiri var. Belə ki, qlobal istiləşmə gedir və bunun Azərbaycana da təsiri var. Havanın dəyişməsi, qarlı günlərin az olması, həm də qiymətlərin hələ ki tam tənzimlənməməsi bu sektora öz təsirini göstərir. Düzdür, bazar iqtisadiyyatıdır. Ancaq turizmin keyfiyyətinin əsas göstəricilərindən biri gəlirlərin bu sahədə nə qədər olması, vergilərin hansı məbləğdə ödənilməsidir. Araşdırmaq lazımdır ki, son 5 ildə ölkəmizə nə qədər turist gəlib. Təbii ki, manatın məzənnəsinin dəyişməsi ilə bağlı məqama da diqqət etmək lazımdır".

**Ekspert turizmin inkişafında fundamental işlərin aparılmadığını dedi:** "Turizm inkişaf edən sahədir. Hazırda Türkiyə ilə Rusiya arasındakı münasibətlərin gərginləşməsi Rusiyadan olan turistlərin yeni istirahət yerləri axtarmasına səbəb olacaq. Bu isə Azərbaycan üçün yaxşı imkandır. Biz gərək marketinq işləri, reklam, təbliğat aparaq. Yəni hər şey paralel olmalıdır. Şans həmişə var. Sadəcə olaraq bu sahədə oturub gözləmək yox, işləmək lazımdır. Nazirlik, turizm mütəxəssisləri - hamı birgə işləməlidir. Çox ciddi təhlillər aparmalıdırlar ki, gəlirlərimiz niyə artmır?! Nəyə görə gələn turistlər uzun müddət ölkəmizdə qalmır? Analitik iş aparılmalıdır. Boş-boşuna "iki milyon turist gəldi" deməklə iş bitmir. O iki milyonun 90 faizi iki gün qalır. Ondansa yarım milyon turist gəlsin, amma həftələrlə qalsın. Analiz etmək, o boşluqları tapıb ona uyğun addımlar atmaq lazımdır. Ancaq təəssüflər olsun ki, bu sahədə fundamental işlər gözə çarpmır".

**İqtisadçı-ekspert Rəşad Həsənov** bu sahədə dövlət dəstəyinə ehtiyac olduğunu bildirdi: "Azərbaycanda qış turizmi son illərdə inkişaf etdirilməyə başlayıb. Təbii ki, bu təcrübə gənc olduğu üçün burada müəyyən nöqsanların olması yaxud da ki, nəticələrin qısa müddətdə əldə olunmaması gözlənilməndir. Amma bu istiqamətdə təşəbbüslərin artırılmasına da ehtiyac var. Bildiyimiz kimi, bir neçə istiqamətdə qış turizmi obyektləri fəaliyyət göstərir. Bunlarda rəqabət mühitinin az olması nəticəsində daha bahalı xidmətlər təklif edirlər. Hazırda da əhalinin gəlirlərinin azalması turizm xidmətlərindən istifadə imkanlarını məhdudlaşdırır. Düşünürəm ki, turizm müəssisələri qiymət siyasətinə müəyyən qədər düzəliş etməlidir. Hazırda Azərbaycanda fəaliyyət göstərən qış turizm obyektlərinin müəyyən dövriyyəsi və fəaliyyəti var. Burada qiymətlər əslində tələb və təklif əsasında formalaşır. Bu müəssisələr əgər hansısa formada müştəri cəlb edə bilməsə, təbii ki, qiymətlərin aşağı salınması strategiyasını həyata keçirə bilər. Hazırda tələbata uyğun yaxud da ki, tələbdən çox təklifin olmadığından qiymətlərin hələlik qonşu ölkələrlə Gürcüstan, Rusiya, Türkiyə ilə müqayisədə bahalı olduğu müşahidə olunur. Xidmət sektorunun zəif inkişaf etməsi, yəni xidmətlərdə digər qonşu ölkələrdə olduğu kimi keyfiyyətin təklif edilə bilməməsi bir çox hallarda azərbaycanlıların xarici ölkələrə üz tutmasına səbəb olur. Yəni burada həm qiymət, həm də xidmətlərin keyfiyyət amili var. Düşünürəm ki, bu məsələləri aradan qaldırmaq üçün ilk növbədə rəqabət mühitini artırmaq lazımdır. Müəssisələrin sayı çoxaldılmalıdır. Nisbətən bahalı layihələr olduğu üçün bu istiqamətdə dövlət dəstəyinə də ehtiyac var. Bu sahəyə biznesin diqqətini artırmaq üçün nisbətən müəyyən güzəştlərin tətbiq edilməsinə ehtiyac var. Burada aşağı faizli, uzunmüddətli kreditlər təklif etmək mümkündür. Eyni zamanda qısamüddətli dövr üçün vergi güzəştləri də tətbiq edilə bilər. Sahibkarlar bu istiqamətdə fəaliyyətlərini artırsınlar, eyni zamanda da rəqabət mühiti formalaşsın.

**İqtisadçı-ekspert növbəti dövrlərdə qış turizminin inkişafının sürətlənəcəyini bildirdi**: "Ümumiyyətlə Azərbaycanda turizmin problemləri ondan ibarətdir ki, turizm günlərinin sayı azdır. Daha çox yay turizminə hesablanmış turizm müəssisələri bir çox hallarda qış dövründə fəaliyyətsiz qalırlar. Turizm müəssisələrinin həm yay, həm qış təyinatlı olmasını da daha az xərclə təmin etmək olar. Müəyyən investisiya yatırımları etməklə mövcud turizm müəssisələrinin qış mövsümündə də fəaliyyətini təmin etmək mümkündür. Bu məsələlər paralel olaraq həyata keçirilməlidir. Qış turizminin inkişaf etməsinə problem yaradan amillərdən biri də sərt qışın az keçməsidir. Amma buna baxmayaraq Azərbaycanın Qafqazətəyi zonalarında yerləşən rayonlarında kifayət qədər imkanlar var. Hazırda texnologiya da imkan verir ki, hansısa formada süni qış mühiti yaradılsın. Düşünürəm ki, hazırkı şərtlər daxilində bu istiqamətdə səylər artırılacaq və kənar müdaxilələr də azalacaq. Ümumiyyətlə isə güman olunur ki, növbəti dövrlərdə qış turizminin inkişafı sürətlənsin".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 40 (6361) 20 fevral 2016

# Yer kürəsi sakinlərinin yarısı eynək taxacaq

Avstraliya və Sinqapur alimlərinin fikrinə görə, 2050-ci ilə qədər Yer kürəsində yaşayan insanların yarısı miopiyadan (yaxınıgörmə) əziyyət çəkəcək. ScienceAlert xəbər verir ki, alimlər 2 milyondan artıq iştirakçısı olan 145 araşdırmanın nəticələrini analiz ediblər.

2000-ci ildə dünya əhalisinin 22,9%-i müxtəlif dərəcəli miopiyadan əziyyət çəkib. Getdikcə bu rəqəmlərin artması müşahidə olunur. Alimlər hesablayıb ki, bu tendensiya saxlandıqda 2050-ci ildə dünya əhalisinin 50% miopiyadan əziyyət çəkəcək. Onlardan 10%-dən çoxunda ağır miopiya aşkar olunacaq.





## Dünyanın ən romantik əri

Yaponiyanın Miyazaki prefekturasında, Şintomi şəhərində yaşayan bir evi indi milyonlarla insan tanıyır. Hər il bahar fəslində evin ətrafı sanki çiçəkli çəmənə sevrilir. Hər tərəf yaponların “şibazakura” adlandırdıqları çiçəklərdir.

Bu evə hər gün orta hesabla 7 min turist baş çəkir. Səbəb dünyada nadir rastlanan sevgi hekayətidir. Toşiyuki və Yasuko Kurokilər 60 il əvvəl, 1956-cı ildə evləniblər. Onlar ailə həyatı quran ilk gündən etibarən fermerlik ediblər. Hər gün sübh çağından şər qarışanadək işləyiblər və onların həyətlərinin sahəsi vur-tut 3,3 kvadrat metrdir.

“Gözləri kor olandan sonra arvadım sanki həyatından bezdi. Səyahət arzumuz da puç oldu. Bu kor gözlərimlə nə görəcəyəm?” - Yasuki belə deyir, ağlayırdı. Şən, daim gülümsəyən xanımımı bu cür görmək ürəyimi parçalayırdı. Çarə axtarmağa başladım. Düşündüm ki, evimizə hər gün kimsə gələrsə, danışarsa, xanımımla söhbətləşərsə, eyni açılar. Və buna görə də evin ətrafını çəmənlik, güllük etdim" - 83 yaşlı Toşiyuki Kuroki söyləyir.

O, iki ilini evin ətrafındakı ağacları kəsməyə və kökündən çıxarmağa sərf edir. Daha sonra 10 il ərzində güllük salınır. İndi Toşiyuki və Yosukinin yaşadıqları evi Yaponiyada “Dünyanın ən romantik ərinin evi” kimi tanınır (mil-li.az).

# Qonşusuna atəş açdı, oğlu öldü

Almaniyada hər kəsi heyrətləndirən təsadüflərlə dolu hadisə baş verib. Ölkənin Vesterheim qəsəbəsində yaşayan 42 yaşlı Norbert özünə aid olan maşının təkərlərini götürmək üçün həm qonşusu, həm də qohumu Johan və oğlu Hans Vernerin yaşadığı evin qarajına girib. 88 yaşlı Johan qarajdan gələn səsləri eşitdiyi zaman evinə oğru girdiyini düşünüb. Silahını götürərək qaraja düşüb və atəş açmağa başlayıb. Yaşlı kişinin silahından çıxan güllələr həmin vaxt qarajda olan qonşusuna isabət edib. Lakin güllələrdən biri telefona, digəri isə cibindəki açara dəydiyi üçün Norbert yüngül xəsarət alıb. Johanın kiçik oğlu Hans Varner güllə səslərini eşitdiyi üçün qaraja düşüb, lakin o qonşusu qədər şanslı deyilmiş. Böyük oğlunu da oğruya bənzədən kişi indi də ona atəş açıb. Bir neçə yerindən güllə yarası alan Hans Varner hadisə yerində həyatını itirib. Johan həbs edilib və evindən çoxlu sayda silah tapılıb.





## Qəhvədanda dəfn edildi

İtaliyanın ən məşhur iş adamlarından biri, 93 yaşlı Renato Bialetti vəfat edib. Milli.Az RAİ-yə istinadən bildirir ki, o, geyzer qəhvəbişirəninin ixtiraçısı olub və bu qəhvəbişirən dünyada “Moka”, “Moka Express” kimi tanınıb. Ailə biznesini quran Renato şirkətin loqotipini də hazırlayıb və “Moka”ların illik istehsalının həcmini 4 milyona çatdırıb. Vəsiyyətində Renato Bialetti yazmışdı ki, vəfat edəndən sonra onun cəsədi kremasiya olunsun və külü də “Moka”ya yerləşdirilsin. Dəfn mərasimi Bialettinin doğulduğu Kazale Korte Çerro kəndində keçirilib. Mərhum iş adamının külü 24 fincanlıq, ən böyük “Moka”ya yerləşdirilib, sonra da tabuta qoyulub. Tabut isə Bialetti ailəsinin məzarlığı olan Omenyu şəhərinə aparılıb.

## Qoroskop (20 fevral)




QOÇ - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

BUĞA - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

ƏKİZLƏR - Göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Xislətinizdən asılı olaraq ətrafda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

XƏRÇƏNG - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəymez. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və büdcədə artım da gözlənilir.

ŞİR - Gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq. Buna baxmayaraq, kifayət qədər dəyərli bir gün yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı rəğbət yaradacaq.

QIZ - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə müttəfiqlərinizi itirəcəksiniz.

TƏRƏZİ - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

ƏQRƏB - Yaxşı olar ki, vaxtınızı bütünlüklə münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Dini dəyərlərə hörmət edin.

OXATAN - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

OĞLAQ - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şansları itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

SUTÖKƏN - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

BALIQLAR - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Film üçün hazırlanan maşın 2,4 milyon sterlinqə satıldı



Ceyms Bond filmlərindən biri olan “Spevtr” üçün xüsusi olaraq istehsal edilən Aston Martin markalı maşın hərraca çıxarıldığı gün 2,4 milyon sterlinqə satılıb. BBC-nin xəbərinə görə, film üçün hazırlanan “Aston Martin DB10" modelli maşın İngiltərənin paytaxtı Romada çıxarıldığı hərracda satılıb. Bondu canlandıran ingilis aktyor Daniel Craigin filmdə geydiyi bir kostyum da 98 min 500 sterlinqə satılıb. Hərracdan əldə edilən gəlir "Sərhədsiz Həkimlər" Dərnəyinə bağışlanacaq.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300